XANƏLİ KƏRİMLİ

# MƏN HAQQIN YAZAN ƏLİYƏM

*(Şeirlər)*

BAKI - 2026

**Rəyçi:**
**Əsgər RƏSULOV,**
***Filologiya elmləri doktoru, professor***

**Tərtib edən və nəşrə hazırlayan:**
**Nəriman ƏBDÜLRƏHMANLI**

**Redaktor:**
**Məmməd TAHİR**

**Xanəli Kərimli. Mən haqqın yazan əliyəm.** *Şeirlər.*
Bakı, "Qanun" nəşriyyatı, 2026, 144 səh., 300 tiraj.

Yüzdən çox elmi, publisist, metodiki məqalənin və dərs vəsaitinin müəllifi olan, İranda, Türkiyədə, Pakistanda, Hollandiyada, Gürcüstanda, həmçinin ölkə daxilində keçirilən bir sıra beynəlxalq elmi simpozium və konfranslarda Azərbaycan elmini ləyaqətlə təmsil etmiş ədəbiyyatşünas alim, pedaqoq və bənzərsiz şair Xanəli Kərimlinin anadan olmasının 75 illiyinə təsadüf edən yeni poetik toplusunda son illərdə qələmə aldığı şeirlər toplanmışdır.

X.Kərimlinin poeziyası insanın daxili dünyasını, ömür yolunu, zamanla münasibətlərini sorğulayan fəlsəfi motivlərlə zəngindir. Əminik ki, bu poetik hesabatı da oxucularının qəlbini fəth edəcək.

AB 022051 / İN 0783

© Xanəli Kərimli, 2026
© Qanun Nəşriyyatı, 2026

# ÖN SÖZ YERİNƏ



## MƏN HAQQIN YAZAN ƏLİYƏM...

Mən Tanrının müjdəçisi,
Haqqın çarpan ürəyiyəm.
İnsanlığın qibləgahı,
Bəşəriyyət gərəyiyəm.

Sözlə yoğrulub varlığım,
Zatımdadır yar-karlığım,
Özümdə öz güzarlığım...
Zamanda zaman dəmiyəm.

Abi-həyat cismimdədir,
“Lövhü-məhfüz” ismimdədir,
Adəm mənim qismimdədir...
Saf könüllər diləyiyəm.

Mən gəlmədim, göndərdilər,
Göydən yerə endirdilər,
Nə dedi onlar dedilər...
Mən onların mələyiyəm.

Yüküm yüklərdən ağırdır,
Dilim deməkdən yağırdır.
Qəlbim fağırdan fağırdır...
Haqla nahaq ələyiyəm.

Sorumluyam hər sorğuya,
Həm əyriyə, həm doğruya,
Haqdan gələn hər ağrıya
Dözən dəlidən dəliyəm.

Qalanmışam oddan oda,
Yaşayıram yaddan yada,
Haqq üçün olmuşam fəda...
Mən Haqqın yazan əliyəm.

Yol göstərən yolçum oldu,
Mən elçiyə elçim oldu,
Hər vəhyi bir ölçüm oldu...
Onunçün haqq ələmiyəm.

Yaza-yaza ozan oldum,
Haqq sirrini yozan oldum,
Şərdən şəri pozan oldum.
İndi pirlər qələmiyəm...

# ÖMÜR DƏ, DOSTLAR DA TÜKƏNİR YAMAN...



## HƏRDƏN XATIRLAYAQ...

*Ömür də tükənir, söz də tükənir...*
***M.Araz***

Ömür də, dostlar da tükənir yaman,
Dünən görüşdüyün bu gün qəbirdə.
Hövsələn təngişir, qanın qaralır,
Ortada qalmayıb dözüm, səbir də.

Yaşamaq budursa, yaşamaq deyil,
Daha yaşamırsan, gün keçirirsən.
Bir ümidli günçün, təsəlli üçün,
Düşünüb, daşınıb köks ötürürsən.

Ələk-vələk olur gün-güzəranın,
Bilmirsən, gün nə vaxt, ay nə vaxt batır.
Təkəm-seyrək qalıb ümid evləri,
Daha onlara da çətin əl çatır.

Elə bil su üstə saman çöpüsən,
Nə arzu qalıbdı, nə ümid, istək.
Gözlər toranlayıb, yenə yol çəkir,
Ancaq gözlədiyi ta gəlməyəcək.

Yenə də ümiddir son pənahımız,
Olub-qalanları qoruyaq barı.
Hərdən xatırlayaq, hərdən yadlayaq,
Dünyamızdan vaxtsız köçən dostları...

***15.05.2026.***

## YAŞADIM

Düşünürəm, daşınıram arabir,
Məndən sonra nə qalacaq dünyaya.
Yarpaq-yarpaq töküldükcə ömür-gün,
Xəzan olub yel aparır - nə fayda...

Nə bağ saldım, nə yurd qurdum, nə ocaq,
Nagəhandan söz ömrünə calandım.
Yarpaq düşdü, çiçək soldu, dağ uçdu...
Hamısını dərd eləyib talandım.

Payçılara pay elədim ömrümü,
Nə barından, nə qarından barındım.
Nə əl açdım, nə də könül kimsəyə,
Öz içimdə çalxalanıb arındım.

İndi dönüb ha baxsam da geriyə,
Bir ağacım yox ki, duram kölgədə.
Mən yelkənsiz qayıq ömrü yaşadım,
Bu da belə bir qismətmiş, bəlkə də?!

***20.04.2026.***

## HƏLƏ DƏ...

Hərdən oxuyuram özüm özümü,
Daha yazdıqlarım qalmır yadımda.
Hərdən axtarıram özüm özümü,
Görürəm, yadımdan çıxıb adım da.

Deyim ki, yaşdandı, yaş o yaş deyil,
Yaxını uzaqdan seçə bilirəm.
Arandan vururam, dağdan çıxıram,
Haradadır bizim küçə - bilirəm.

Bilsəm də dünyanın gəlir-çıxarın,
Baş aça bilmirəm özüm özümdən.
Əlimdən alırlar halal tikəmi
Bir kəlmə söz demək gəlmir üzümdən.

Adımı qoyublar "yaxşı adamdı",
Kimsənin işinə dəyib dolaşmaz.
Özləri bir gündə min ev yıxırlar,
İnsanlıq adına, vallah, yaraşmaz.

Bu nə zəmanədi, bu nə dövrandı,
İnsanı şeytandan ayırmaq olmur?..
Bilirsən ki, şeytan şeytandı, qardaş,
İnsan iştahasın doyurmaq olmur.

Milyon illərdir ki, yol gəlir insan,
Hələ də özündə, sözündə deyil.
Bütün ömrü boyu haqq arasa da,
Haqqın yolunda yox, izində deyil.

Onunçün də dünya yaranışından
Qana bələnibdi, qana düşübdü.
Doğmalar yadlaşıb, yaddaşlar itib,
Hərəsi bir səmtə, yana düşübdü.

...Özümdə özümü çox axtarmışam,
Ayaq yer tutandan, ağlım kəsəndən.
Hələ də özümü tapa bilmirəm,
Bu çaşqın dünyaya yolum düşəndən.

***03.04.2026.***

## YAMAN DARIXIRAM...

Yaman darıxıram, bilmirəm niyə,
Elə bil dünyaya cavabdehəm mən.
Elə bil hamının qəmi mənimdi,
Hamının borcunu ödəməliyəm.

Məndənsə kimsənin yoxdur xəbəri,
Ölmüşəm, qalmışam... kimin vecinə.
Hər kəsin bir qəlbdə olsa da yeri,
Hər kəs öz dərdini çəkib içinə.

Hamı dərd ələyir dərdin içində,
Sevinci kədərə qurban veribdi.
Bu qədər əhli-kef "mərdin" içində
Məntək binəvada dərd nə görübdü?

Bilmirəm, nədəndir ürək ağrısı,
Göynəyir, tutuşur, alışır, yanır.
Zamanın qarışıb yaman havası,
Haraya baxırsan, qəlbin odlanır.

Beləcə gün-güzar, belə çək-çevir,
Taladı ömrümü, yoxdur heç nəyim.
Yaşın dörddə üçün yola salsam da,
Yenə də bir dərddaş gəzir ürəyim.

## DÜNYA VƏ SƏN

Ağına, bozuna baxma dünyanın,
Onsuz da dünyaya gəldi-gedərik.
Çox da könül vermə bu könülbaza,
Sonra bu barədə söhbət edərik...

Öz ağlın, öz duyğun, öz baxışın var,
Çalış öz dünyanı özün qurasan.
Versən yüyənini dünya əlinə
Çətin ki,  ömrünü başa vurasan.

Görsə ki, azacıq üzüyolasan,
Səni fırfıratək oynadar dünya.
Abrına qısılıb, həya eləsən,
Qazantək dibindən qaynadar dünya.

Onunçün dünyayla pərdəli dolan,
Sən öz həddini bil, sən öz səddini.
Bəlkə də, birtəhər dil tapsan, onda
Hər kəs də qoruyar öz sərhədini...

## DEYİLƏNƏ GÖRƏ, DEYƏNƏ GÖRƏ...

Həyat bir yataqdır, ömürsə yuxu,
Yatırıq əlli il, səksən il, yüz il...
Elə ki dünyadan köç vaxtı gəlir,
Ayılırıq onda yuxudan qəfil.

Hər gedilmiş yolun son duracağı
Bir təzəcə yolun başlanğıcıdır.
O yolun da axır dayanacağı
Əbədi dünyanın ünvan adıdır.

O əbədi ünvan Haqq dərgahıdır,
Orda bərabərdir bütün insanlar.
Nə döyülən vardı, nə də ki döyən,
Qarşılıqlı hörmət, vardır etibar.

Orada nə il var, nə ay, nə də gün,
Sonsuzdur orada zaman da, vaxt da.
Nə bürkülü hava, nə isti, soyuq,
Nə yağışlı gün var, nə də ki şaxta.

Nə var-dövlət yığmaq, cah-calal qurmaq,
Nə də ki taxt-taca vardır ehtiyac.
Bir içim suya da yoxdur təmənna,
Nə bir dilənçi var, nə ac, yalavac.

Deyilənə görə, deyənə görə,
Sirlərin içində sirdir o dünya.
Cənnət, cəhənnəmdir astarı, üzü,
Yaxşılı, yamanlı yerdir o dünya.

...Ey könül, özünə vermə təsəlli,
Nəyin var, nəyin yox - özünə bəlli.
Aldanma deyilən hər deyilənə...
Bu, çərxi-fələkdir - tutma tək əlli!!..

***11.04.2026.***

## GETDİ

Bir süfrə başında çörək kəsdiyim
Neçə dost-tanışlar yad oldu getdi.
Kimi var-dövlətə verdi könlünü,
Kimi də şöhrətə ad oldu getdi.

Kimi də ömrünün qönçə çağında
Nakam taleyinin qurbanı oldu.
Kimi də  eşq adlı bəlaya düşdü,
Kərəm tək qovğalı od oldu  getdi.

Kimi həsrət qaldı xatir-hörmətə,
Kimi də axırda qaldı minnətə.
Kimi qulb etmədi behişt-cənnətə,
Kimi könüllərdə dad oldu getdi.

Xanəli, bu dünya haqq ələyidi,
Ələnən ələnib keçdi ələkdən.
Yarıyan yarıdı,yarımayan da
Ahı-zar içində mat oldu getdi.

***23.01.2026***

## ÖMÜRLƏR VAR

Yaxşı gün də, yaman gün də ömürdür,
Hər ömürün öz ömürü, günü var.
Aylar var ki gəlib keçir xəbərsiz,
Günlər  var ki hər anında xoş bahar.

Ömürlər var, ömürlərə calanır,
Ömürlər var, bulam-bulam bulanır,
Ömürlər var, haqq yolunda talanır,
Ömürlər var, başdan-başa etibar.

Yaxşı ömür, pis ömür də taledi,
Çox ömürlər ömrü nakam elədi.
İstəməsən, istəsən də belədi...
Yazı oldu,qismət oldu ixtiyar.

Bir ömür də sən yaşadın, Xanəli,
Bəd də keçdi, xoş da keçdi günləri.
Yola saldın qərinələr, illəri,
Nə gətirdin, nə götürdün...
Nəsə var?!.

## KÖNÜL

*Övlad və nəvələrimə*

Ruhu düşkün olanlardan
Uzaq dolan, uzaq, könül.
Bar-bəhrəsiz budaqlardan
Bar gözləmə nahaq, könül.

Hər könüldən könül olmaz,
Hər könül də vəfa qılmaz,
Könülsüzlər könül duymaz,
Ver könlünə qulaq, könül.

Çoxalıbdı haqq itirən,
Haqdan çox nahaq bitirən,
Xeyri qoyub şər götürən,
Çox eyləmə soraq, könül.

Tək olsan da bu dünyada,
Sirr könlünü açma yada.
Yük olma heç Allaha da,
Ol özünə dayaq, könül.

***11.01.2026.***

## DÜNYA

Mən bu dünya ilə yollaşammadım,
Kim yollaşa bilsə, halaldır ona.
Dünyayla dildaş və sözdaş olanlar
Çapırlar atları hər an dörd yana.

Üzdə mələksima, əziz,mehriban,
İçi fitnə-fəsad, şərdi bu dünya.
Güclüyə toy-bayram, eyşi-işrətdi,
Gücsüzə bir dərdi-sərdi bu dünya.

Bir anda min rəngə, min dona girir,
Nə Allahdan qorxur, nə də iblisdən.
Milyon illərdir ki, toylu, yaslıdı,
Nə şövqündən düşür, nə də həvəsdən.

Onun da öz mizan-tərəzisi var.
Heç kəsi, heç nəyi almır vecinə.
Neçə min peyğəmbər gəlib getsə də,
Nə kitaba baxır, nə də ki dinə.

Dəyirman daşıtək gündüz, gecəli,
Hərlənir, fırlanır... öz aləmində.
Üyüdüb töksə də qərinələri,
Özü özündədir, yeri yerində.

Xanəli, başını çox ağrıtma sən,
Qiymətdə gövhərdi, dürdü bu dünya.
Yerin də, göyün də sirri özündə,
Sirlərin içində sirdi bu dünya...

## BU DÜNYANIN SONU NƏHSDİR...

Kimlər gəldi, kimlər getdi -
bu dünyanın nə vecinə.
Dünyanın yox ehtiyacı
nə ağıllı, nə gicinə.

Babam, nənəm hey deyərdi:
"Dünya şeytan karxanası,
Ha bəzənib düzənsə də,
yenə cırıqdır çuxası.

Nə dost bilir, nə də düşmən,
Dəyirmantək öz işində,
Nə Allahı, imanı var,
Zəmanətək gərdişində.

Yazıq insan hey aldanır
dünyanın fitnə-felinə.
Bir düz söz gəlməyib hələ
bu qumarbazın dilinə.

Axırı bir quru səsdir,
Bir yaşamlıq puç həvəsdir.
Bu dünyanın sonu nəhsdir...
Fürsəti vermə əlinə".

***31.05.2026.***

## AH... SOKRAT...

Ah...
Sokrat...
Sokrat...
Dünyada ilk demokrat!
Ağlın, idrakın dəlisi,
Allahın yerdə vəlisi.
Sən təbiətdən hikməti
cəmiyyətə gətirdin.
Bununla da çiyninə
ağır bir yük götürdün.
Yarı vəhşi,
Yarı insan olanları
    çağırdın Haqq yoluna.
Onlarsa
        zəhər qatdı aşına,
        qandal vurdu qoluna.
Çünki yaranışdan
İnsan adlanan şeytan
         qaçır haqdan-
Cin tasdan qaçan kimi.
Onunçün də
         min sifətə girir insan
Cənnət qapısını açana kimi.

Səni başa düşmədilər zamanında,
qalmamışdı bir kimsəyə gümanın da.

Ancaq
sənə zəhər içirənlər,
qoluna qandal vurub
dünyadan köçürənlər
sənə görə qaldılar tarixdə-
bir lənət damğası tək.
Təəssüf...
Onlar hər gün, hər an
min-min
gəlsələr də dünyaya,
Səndənsə
bir daha gəlməyəcək...

***05.06.2026***

## AĞLA

Çox ahı-zar eləmə sən,
Öz dərdini özün ağla.
Paralanmış ürəyini
Öz əlinlə özün bağla.

Yad bağlasa, yalan bağlar,
Sonra ağrın daşıb çağlar.
Ömrün yarı yolda qalar,
Ağlını vermə ağıla.

Hərənin də var öz dərdi,
Hara baxsan, dərd göyərdi,
Rəhmətlik babam deyərdi:
"Sən özün özünü sağla".

Onsuz da dünyadı fani,
Hərəyə əzizdi canı.
Gəl qaraltma nahaq qanı,
Özün özünə gün ağla.

## İNANIB ALDANMA...

*"İnanmasan, yaşamaq olmur"*
*əminliyi ilə yaşayanlara*

Hər şeyə darılıb üzmə özünü,
Dildaş olmadığın dillərdən uzaq.
Üzə gülümsəyən üzgörənlərdən,
Əlinə əl yetməz əllərdən uzaq...

Öz yükün, öz yolun, mənzilin olsun,
Bil ki, gündoğanın, günbatanın var.
Gündə bir yol tutub ayaq döyəndə
Olmaz nə sədaqət, nə də etibar.

Çətindir, bilirəm, ürək qızdırmaq,
Sənə ürəyindən "pay" verənlərə.
Bir az səbirli ol, bir az da ayıq,
Yerli-yersiz sənə say verənlərə.

İnanıb aldanma inandığına,
Aldana-aldana yaşamaq çətin.
Aldana-aldana yaşasan əgər,
İtər ləyaqətin, düşər hörmətin.

Demirəm, hamıdan çəkin, kənar gəz,
Bəlkə də, ən böyük günahdır bu hal.
Daş daşdır, daşlarda inam olmasa,
Dağlar da diz çökər, düşər qalmaqal.

Bir qismət payıdır ömür də, gün də,
Kiminə işıqdır, kiminə zülmət.
Zülməti işığa döndərənləri
Yaşadar məhəbbət, tapar səadət.

Yaşa, ürəyinlə, eşqinlə yaşa,
Necə ki, gözlərdən çəkilməyib nur.
Aldanma, yalmanma kimsəyə, nəyə,
İnsanı yaşadar sevgi və qürur...

## ALLAH ADAMI

Ürəyi Günəşə açılan adam,
Hardandır bu qədər sevgi, məhəbbət?!
Hardandır bu qədər hörmət, ehtiram?!
Bu qədər tükənməz, sonsuz sədaqət?!

Görünür, adam tək yaşamaq olar,
Təki ləyaqətin, qeyrətin olsun.
Dünyanın yükün də daşımaq olar.
Qəlbində təpərin, cürətin olsun.

Sən bunu bacardın, Allah adamı!
Prometey ömrünü yaşamağınla.
Əridi qəlblərin qaranlıqları,
Zülmətləri yaran gur işığınla.

Bacardın şeytanı mələk etməyi,
Bacaran yaşayır, yaradır ancaq.
Yaradan Günəşdir, qürub etsə də,
Sabah daha aydın, parlaq doğacaq.

## İTDİ HƏQİQƏTİN HƏQİQƏT ANI...

Yenə cin atına minibdi dünya,
Yüyəni İblisin yedəyindədir.
Yenə qan püskürür başsız başçılar,
Bilmirsən, kim dəli, kim divanədir.

Gözlər od saçanda itir ağıllar,
Beyinlər, ürəklər qəzəbə dustaq.
Dünya şairləri, söz adamları,
Dağılar dünyamız biganə qalsaq.

Dünya yaranmayıb topla, tüfənglə,
Dünyanı yaradan SÖZ olub ancaq.
Sözün qüdrətindən, sözün gücündən
İblis də, şeytan da düşübdü qaçaq.

Bu dünya fəlakət burulğanına
O zaman düşdü ki, SÖZ güllələndi.
Söz öldüyü gündən çaşdı ağıllar,
Dünya qana düşdü, qana bələndi.

İtdi həqiqətin həqiqət anı,
Dünyada top, tüfəng hakimi-mütləq.
Çaşan ağılları, coşan qanları
Kimlər yedəkləyib, kim oturdacaq?!

Sonu görünmür heç bu qan-qadanın,
Dəyişib yerini haqq ilə nahaq.
Dünyaya düzəni gətirən ancaq,
Şairlər olacaq, Tanrı olacaq...

## ŞÜKÜR DƏRGAHINA, ŞÜKÜR, AY ALLAH

Şükür dərgahına, şükür, ay Allah,
Bu gecəm də keçdi ağrı-acısız.
Bu gün də səhəri açdım gülərüz,
Bu gün də Günəşi gördüm qayğısız.

Kaş, hər günüm belə xoş açılardı,
Görəydim dünyanın üzündə gülüş.
Böləydim hamıya sevgi payımdan,
Hamının bəxtinə düşəydi görüş.

Pis-yaxşı bu ömür qismətimizdi,
Sevgiylə yaşamaq - başqa bir aləm.
Yaşayaq, güvənək, edək etibar...
Üzməsin ömrü, qoy, nifrət, kədər, qəm.

Dünyaya gəlsək də sevgi oduyla,
Heyif ki, köçürük ağrı-acıyla.
Ancaq ən sağalmaz dərdi insanlıq
Sağaldıb eşq adlı bir əlacıyla.

Hər addım, hər nəfəs, hər gülüş səsi
İnsançün xoşbəxtlik möcüzəsidir.
Vaxtında qədrini bilmədik deyə
Bu dünya bizimçün qəm nəşəsidir.

Verdiyin bu ömrə, xoş günə şükür,
Onsuz da, bu dünya gəldi-gedərdir.
Nə qədər karvanlar köçsə də, dünya
Elə yaranışdan təzəcə-tərdir.

Bizi aldatsa da, çox təzə-tərlər,
İnamla yaşadıq üzü sabaha.
Bir ömür içində neçə min kərə
Gah şeytana uyduq, gah da Allaha.

Yaşadıq, yaşatdıq dövrü, zamanı,
Hərə öz çiyninə düşən yük ilə.
Ümidlər, arzular qağayılar tək
Dalğalar qoynunda çırpınır hələ...

## YOLUN, DE, HARADIR...

Yolun, de, haradır, ey Haqq yolçusu?
- Tanrım muradımı verdiyi yerə.
- Özün bilə-bilə gedirsən ora?
- Yox, Tanrım çağırıb özü bu kərə.

...Hər anım beləcə sınaq içində,
Sorğu-sualdadır günüm-güzarım.
Hər sorğu-sualdan qazandığımsa
Bir təmiz adımdır, bir etibarım.

Mənə bu dünyanın var-dövlətindən
Çatan bir qələmdir, bir də ağ kağız.
Narahat gündüzüm, yuxusuz gecəm
Həmdəm olub mənə qoymadı yalqız.

Nə qədər olsa da ilham qaynağım,
Hökm də onundur, hökmdar da o.
Mən yazıb-pozmuşam onun əliylə,
Qoymadı bir yol da məni darda o.

Mənsə taleyimin yolçusu oldum,
Alnıma yazılan yazıyla birgə.
Onunçün də uca Haqq dərgahında
Mənə yer verdilər - birinci cərgə.

Nə vaxt ki, haqq deyib dilim, qələmim
Həmişə yoluma nur ələnibdir.
Bir anlıq şeytana uyanda könlüm,
Yerim də, Göyüm də silkələnibdir.

Hərə öz yolunun karvanbaşıdır,
Xeyri də, şəri də özünə agah.
Bir addım atırsa xeyirə sarı,
Bir addım qazanır özünə günah.

İndi nə mən mənəm, nə özüm özüm.
Cismim də onundur, ruhum da onun.
Hərdən soruşuram: “Axı mən kiməm”?
Sual da onundur, cavab da onun!!!

Nə qədər suallar cavabsız qalıb,
Nə qədər cavablar suala möhtac.
Cavab tapılsa da çox suallara,
Çox cavablara da vardır ehtiyac...

## LƏZZƏTİ VAR YAŞAMAĞIN

***"Özümdən özümə" silsiləsindən***

Kövrək xatirələrlə yaşayırıq hələ ki,
Xatirələr bitəndə bitəcəkdi ömür-gün.
Yaşayırıq zamanla gümanın arasında,
Çox şeylər də yadlaşıb yaddaşımda büsbütün.

Yaş üstə yaş gəldikcə səngiyir od-ocağın,
Duyub düşündüklərin unudulur bir anda.
O qədər çəlpəşikdir dünyamızın işləri,
Hər şey tərsinə dönür gözlənilməz zamanda.

Nə yaşadın, nə gördün - keçirirsən ələkdən,
Bu günə nə gətirdin, nə itirdin yollarda,
Dönüb baxanda geri bircə anda görürsən,
Ömrünün coxu keçib boş-boş qalmaqallarda.

İndi "ələk ələnib, xəlbir göydə fırlanır",
Ələməyə ələklik qalmayıbdı darı da.
Beş əllə yapışsaq da dünyanın yaxasından,
Dünya filan dünyadır, yoxdur etibarı da.

Bu, bir giley-güzar yox, gəldi-gedər söhbətdir,
Elə-belə dolandı yaşın yaşlı çağında.
Yolun çoxu gedilib, qalsa da beş addımı,
Yenə də ləzzəti var indi yaşamağın da.

## GÜLƏ-GÜLƏ

Könül, nahaq havalanma,
Keçən keçdi, gəlməz ələ.
Min bayatı, ağı çağır
Bircəsi də yatmaz dilə.

Ömür-gün ta çallaşıbdı,
Qazancı giley-güzardır.
Macal tapsan, vur hesaba:
  İllər sənə nə gətirdi?
  İllər səndən nə apardı?

Zaman çoxbilmiş ixtiyar,
Sirr sözünü sirr də saxlar,
Etdi bizi biixtiyar...
  Getdi daha qaynar çağlar,
  Bu çağ bizə nə gün ağlar?

Nə yaşasan bundan belə,
Ərisən də gilə-gilə,
qalan ömrü vermə yelə...
Köçəndə də son mənzilə,
Heç sındırma öz özünü,
De zamana  sərt sözünü:
  "Etibarlı" etibarsız,
  Hər bir anında qərarsız,
  Məni yola saldın belə,
  sənsə yaşa, gülə-gülə"

***Bakı, hava limanı, 29.03.2026.***

## VƏSİYYƏT

Mən öləndə yasımda
şəkilimi assanız,
çərçivəsiz asın.
Çünki bütün ömrümü
çərçivə içində yaşamışam.
Çərçivə içində yaşaya-yaşaya
bilməmişəm azadlığın
nə dadını, tamını.
Heç ağlıma  da gətirməmişəm
azadlığın şairlərə verdiyi ilhamını.
Bununçün də, siz allah,
şəklimi çərçivəsisz asın,
Qoyun, heç olmazsa,şəklim
üçcə gün dadını dadsın azadlığın,
üçcə gün azad yaşasın!...

***28.01.2023.***

## SUAL

*(70 illiyimə)*

Dünya!..
Səndə nəyim qaldı?
Susursan!..
Nə verdin ki, nəyim qala?
Nə bağım var, nə bağatım,
Nə itim var, nə də atım.
Nə təzəm var, nə boyatım…
Tək əprimiş canım qalıb-
Allaha şükranım qalıb.
Bir də quru söz ünvanlı
qələmli ad-sanım qalıb…
Bilirəm ki, ya tez, ya gec
alassan onları məndən…
Onunçün də illərdir ki,
küsüb səndən
nə xeyrinə qarışıram,
nə şərinə.
Özüm qana-qana, vallah,
sənlə pərdəni götürüb
çox da getmirəm dərinə!!..
İndi özün götür-qoy et,
sən neylərdin
olsaydın mənim yerimə?!..

***14.08.2021***

## BİR ŞƏKLİN TƏƏSSÜRATI

Elə bil ki, dünənmiş
altmış il bundan əvvəl,
Gözlərimin önündə
canlanan əzəmətli
"Atam" adlı o heykəl:
"Kəndə şəkilçi gəlib,
yığışın qonum-qonşu,
yaxın, tanış, dost-biliş,
Gəlin şəkil çəkdirək,
Heç olmasa, bir kərə
durub çiyin-çiyinə
qohum kimi, dost kimi
bir şəkildə birləşək.
Bu günlərdən xatirə,
Bu gündəki sədaqət
qalsın bizdən yadigar
gələcəyə əmanət.
Ya qismət, o zamana
ölən, qalan kim olar.
Kimlər baxıb şəkilə
kimləri yada salar."

Elə bil ki, dünənmiş
bu haray, bu təlaşlar.
İllərdir o çağların
fərəh dolu günləri

silinməz yazı kimi
ömür-günümdə qışlar.

...İndi durur o şəkil,
o zamanın, o anın
canlı xatirəsitək,
Bir az həlim, bir az sərt,
bir az miskin və kövrək.
Duruşlar solğun, məhzun,
baxışlar lal və susqun...

Kimi köçüb dünyadan,
Kimi uçub yuvadan,
Kimi də son nəfəsdir
asılıbdı havadan...
Yoxdur çoxundan soraq,
İllər alıb apardı.
Zamanın üzü dönsün...
Çox arzunu, ümidi
kökündəncə qopardı...

...Bir vaxt əl-əl dolanan
sevinci, məhəbbəti
ürəklərə od salan
bu əziz-xələf şəkil
İndi solub, sozalıb,
Şəkillərin içində
yadlaşaraq qocalıb.

***25.01.2022***

## OVQAT TƏƏSSÜRATI...

Xəyallar, arzular sonsuz kainat,
Imkanım iynənin ucu boydadır.
Röyalar içində keçir ömür-gün-
Bir əlim Günəşdə, biri Aydadır.

Ümidlə açıram hər gün səhəri,
Hər doğan Günəşdə bir arzu, dilək.
Oxşayır ruhumu bir səhər mehi,
Bir də ki dağlardan əsən xoş külək.

Bu da bir ömürdür Tanrı payından
Bu paydan pay düşüb çox ömürlərə.
Yaşın axarından çox sirlər keçib...
Çox sirlər də qalıb ahıl günlərə.

Bir anlıq həvəsdir, bir anlıq səsdir
Bu yaşın ahəngi, bu yaşın rəngi.
İndi ömrüm-günüm soyuq nəfəsdir
Bir daha parlatmaz qızıl üzəngi.

İnsan təbiətin qan qardaşıdır,
Çox zaman bölüşür düşüncələrin.
Bəzən də həddini aşanda insan
Təbiət göstərir ona öz yerin.

Mən də təbiətin bir parçasıyam,
Odlu şimşəklərim, ildırımlarım...
Yazımda yazlığım, qışda qışlığım,
Dağımda dumanım, şaxta, qarlarım...

Çox az şeylər qalıb indi yadımda,
Zaman çox şeyləri alıb apardı.
Mənim gündoğandan gün batanadək
Qılınc, at oynadan günlərim vardı

İndi təbiət tək ahıllaşmışam,
Quruyub bulağım, çağlamır çayım.
Dəniz tək bir udum yağışa həsrət,
Meşə tək lal-dinməz, yox hay-harayım.

Əllərim qalıbdı gözümün üstə,
Gələn qaraltını seçməyim çətin.
Nəvələr oynayır dizimin üstə,
Bir də arazları keçməyim çətin.

Bəlkələr, gümanlar pərən-pərəndir,
İlgəyi açılmış təsbehlər kimi.
Mənə dost-tanışlar köçüb gediblər,
İndi dərd bölməyə axtarım kimi?..

Dəyəri dəyərə mindirir zaman,
Dəyərsiz ömür-gün izafi yükmüş.
Vaxtında gəlsək də bu dünyaya biz,
Vaxtında getməksə, daha böyükmüş...

***01-07.09.20***

## HƏYAT DEDİYİMİZ ŞEY

Deyirəm,
hərdən öz-özümdən
soruşuram:
Həyat dediyimiz şey
axı, nədir?
Nə çölü, nə içi bəllidir,
Hərənin də başına
bir cırıq papaq qoyub
min cürə oynadır.
Bununla da hamını
veyil-veyil aldadıb
içindəncə qaynadır.
Deyək ki,
biri şeir yazır,
o biri şeir deyir,
biri də, nə bilim, nə deyir...
Bir bədbəxti də
nə şeir yazır,
nə şeir deyir,
Elə boş-boşuna
ac qurd kimi
içini yeyir.
Axırı bir çıxır, vallah:
Nə şeir yazan xoşbəxt olur,
nə şeir deyən,
Nə də boş-boşuna içini yeyən...

***07.03.2026***

## MƏN ELƏ BİLİRDİM..

Bir vaxt xəyallarla qanad açardım,
İndi xəyallar ta xəyal olubdu.
Qismətimə düşən tale yazısı,
Məni xəyallardan uzaq salıbdı.

Mən elə bilirdim, uşaq ağlımla
Yerləri, göyləri mən quracağam.
Mən elə bilirdim, elə bilirdim
Zülmün kəməndini mən qıracağam.

Mən elə bilirdim, cinlə şeytanı
Tas qurub haqq yola gətirəcəyəm.
Bütün yaxşılığı, xeyirxahlığı
Nəsildən nəsilə ötürəcəyəm...

Mən elə bilirdim...demə, bildiyim
Uzaq üfüqlərdə batan günəşmiş.
Uşaq inadına sığmayan arzum
Mənim qismətimdən gen düşəcəkmiş.

Ağlımın təzəcə morlanan çağı
Qayğılar leysantək yağdı üstümə.
Hələ qızınmamış od-ocağıma,
Tüstü burulğanı durdu qəsdimə.

Yaşadım, yaşaya bildiyim qədər.
Kimsəyə əl açıb köks ötürmədən,
Özüm öz süfrəmin möhtacı oldum,
Abrımı, həyamı heç itirmədən

Sağ əlim sol əldən çəkmədi minnət,
Nəyi bacardısa, dedim "min şükür".
Mən hələ əl tutdum neçə "əlsizə"
Əl tutanın Allah başından tökür.

Mənə hey deyərdi dədəm, babam da:
"Qapılar açan ol, qapı bağlama.
Bir əlinlə vurub yıxanda, oğul,
Bir əlinlə qaldır, heç kin saxlama.

Yaradan yaradıb dirriksizi də,
Yaradıb onu ki, görk olsun sənə.
Nə qədər pis olsa, Vətən oğludur,
Qoyma möhtac qalsın yada, düşmənə.

İtin sahibi var, qurdun Allahı.
Allah yaratdığın hifz edər özü.
Sən öz yükünü çək çəkdiyin qədər,
Hər şeyi görəndir həqiqət gözü.

Xəyalla gerçəklik arasında mən
Yaxşılı, yamanlı ömür yaşadım.
Birinin yadında yaxşı adamam,
Birinin yadında pis qaldı adım.

Bəzən xəyallara  qonaq oluram
Yaşın xoş çağında, xoş ovqatında.
Hərdən uşaqlığa qayıdıram mən
O kövrək xəyallar qanadlarında...

## ÖZÜNƏ QAYIT...

***Mənlə bağlı bir sənədə vurmaq üçün foto-şəklimi istəmişdilər, İndiki çağımın şəklini göndərdim. O şəklimi votçapda görən qələmdaş dostum Seyfəddin Eyvazlı mənim özündə olan bir az "cavan" şəklimi göndərərək kövrək duyğularla yazdı: "Təklif edirəm ki, Xanəli müəllimin bu şəkli şəxsi səhifəsinə vurulsun". Doğrusu, bu səmimi duyğular məni də duğulandırdı...***

Sənin duyğuların kövrəltdi məni,
Üstümə illərin qayğısı gəldi,
Mən elə bilirdim, ömrün hər çağı
Daha təravətli, daha gözəldir.

Şəkilimə baxdım - son şəkilimə,
Qəlbimdən, duyğumdan qara qan axdı.
Üzün qırışları, göz baxışları
Mənə pıçıldadı: "Bəsdir, ta vaxtdır.

Daha qalmayıbdı o qəddi-qamət.
Yerişin, duruşun payız çağıdır.
Nə halın o haldır, nə də əhvalın,
Baharın gedibdir, qış qonağındır.

Bir anlıq keçdiyin yollara dön bax,
Gör nəyin qalıbdı səndən nişanə.
Sən özün özünçün heç yaşamadın,
Özgələr dərdiylə oldun divanə.

Sənin taleyinə yazılmış, bəlkə,
Od-ocaq olasan ocaqsızlara.
Ümidi kəsilən, haqqı talanan
Arxasız, köməksiz, yapyalqızlara.

Artıq gün əyilib, qürub çağıdır.
Ələnən ələnib, çıxıbdı əldən.
Nə qədər gec deyil, özünə tapın,
Yoxsa ümid yoxdur özgə kimsədən”

Bu da bir ömürün son akkordları,
Başlandı nöqtədən, bitdi nöqtədə.
Nə qədər boranlar, çovğunlar gördü,
Ömür dediyimiz buymuş, bəlkə də...

***25.09.2025.***

## YAŞAMAQ

Gələndə görüşdük,
Gedəndə öpüşdük.
Başım elə qarışqdı
Soruşa da bilmədim:
-Səhhətin necədir?
-İşin necədir?
Görünür, indi
yaşamaq dediyimiz
elə, beləcədir.

# YAMAN KÖVRƏLMİŞƏM



## NAXÇIVANIMIN

Dağları dağımdı, bağları bağım,
Aranlı, yaylaqlı Naxçıvanımın.
Süsənli, sünbüllü, güllü növrağı
Hüsnünə bəzəkdir Naxçıvanımın.

Bir canlı kitabdı onun hər daşı,
Qovğalar çəkibdi əyilməz başı.
Beş min ildən çoxdu bu yurdun yaşı,
Tarixdir sirdaşı Naxçıvanımın.

Bir yanı Təbrizdir, bir yanı Göyçə,
Bir yanı Ərzurum, bir yanı Gəncə,
Əlinə əl çatar üçü deyincə,
Süfrəsi halaldır Naxçıvanımın.

Xanəli, bu yurda vurğun olandan,
İlhamı almısan dağdan, arandan,
Qorxun yox çovğundan, qardan, borandan,
Hər çağı gözəldir Naxçıvanımın.

## NAXÇIVAN

Bir ovuc torpaqdır, bir çəngə oddur,
Tarixlər şahidi ulu Naxçıvan.
Qorqud düşüncəli, Babək qeyrətli,
Bəşərin qibləsi, yolu Naxçıvan.

Baharı bahardır, qışı da qışdır,
Torpağı dərmandır, havası xoşdur,
Şeirdə, sənətdə başlardan başdır,
Qüdrətdən yaranıb dolu Naxçıvan.

Görənlər olubdu hüsnünə heyran,
Səcdəsi Allahdır, kitabı "Quran",
Ürəktək döyünən, ürəktək vuran,
Canlı bir aləmdir nurlu Naxçıvan.

Xanəli, qəlbinin şah damarıdır,
Gözünün nurudur, könül varıdır,
Vətənin qüruru, namus, arıdır,
Şərəfli, şöhrətli, şanlı Naxçıvan.

## YAŞAYAQ, GÖRƏK

Yaman kövrəlmişəm - çiçəkdən kövrək,
Bir çiçək ətri də üşüdür məni.
Nə çayın nəğməsi, nə bulaq səsi
Ovuda bilməyir kədəri, qəmi.

Dəymədüşərliyəm uşaqsayağı,
Tez küsüb tezcə də barışıram mən.
Nə başıma sığal çəkənim qalıb,
Nə də əl uzadıb "sən qorxma" deyən.

Dəyişdi dünyanın astarı, üzü.
Dünən ağ gördüyün indi qaradır.
Hər gün oyun gedir, bilmirsən ki sən
Cəhənnəm haradır, Cənnət haradır.

Cəmiyyət bir yana, təbiət belə
Bir anda min rəngə, min dona girir.
Yağış yağa- yağa, qar yağa- yağa
Günəş də bir yandan "salama" gəlir.

Elə bilirsən ki, indiki güllər
Əvvəlki güllərtək açıb çağlamır.
Daha sirr deyil ki, bir çox sevənlər
Nakam eşqi üçün qara bağlamır.

Çəmənin, kövşənin duzu, ətri də
Sanırsan qeyb olub çəkilib göyə.
Nə əkin, nə biçin gözünə dəymir,
Torağay səsi də yatmır ürəyə.

Bir vaxtlar dağların çiyindaşıydı
Bulud yapıncılı çoban-çoluqlar.
Yaylaqlar çal-çağır, toy-büsatlıydı -
Mələşən quzular, kişnəyən atlar...

Onda beş-on yaşlı oğlan uşaqlar
Özlərin kişitək aparardılar.
Atı yəhərləyib, kəli çullayıb
Mahaldan mahala yol salardılar.

Hər kəsin qəlbində inam, etibar,
Hər kəsin sözünə güvənlik vardı.
Böyüyə ehtiram, qadına, qıza
Hamı göz olardı, hayan olardı.

O vaxt  aldığımız öyüd, tərbiyə
Dəymir iki qara qəpiyə indi.
"Ağız deyəni ta qulaq eşitmir",
İndi başqa aləm, başqa mühitdi.

Onunçün də zaman mənimkimləri
Sahilə tulladı ölü balıqtək.
Axırımız harda bənd alacaqdı?
Bəlkə, qismət oldu, yaşayaq, görək...

***07.06.2025***

## BU ÇAY HARA AXIB GETDİ BELƏCƏ?!

*Əvəzsiz dost, istedadlı qələmdaş, professor*
*Elbəyi Maqsudovun əziz xatirəsinə*

Bu çay hara axıb getdi beləcə?
Bu çay mənə layla çalıb hər gecə.
Səsi, küyü nəğmə dolu bir aləm,
Məni məndən alıb getdi gizlicə
Bu çay hara axıb getdi beləcə?!

Nərəsindən səksənirdi qayalar,
Qəzəbi yer titrədirdi yerindən.
Ağ köpüyü ağ göyərçin qanadlı,
Min sirr açdı təbiətin dilindən.
Bu çay belə cövlan etdi illərcə,
Bu çay hara axıb getdi beləcə?!

Ehtiyacı yox bahara, nə qışa.
Öz qışı var, öz payızı, öz yazı.
Tutqun-tutqun oxusa da arabir,
Heç vaxt kökdən düşməmişdi avazı.
Hər axışı, hər baxışı təzəcə,
Bu çay hara axıb getdi beləcə?!

...Bu çay axdı, nə gün bildi, nə gecə,
Can atırdı vüsalına qovuşa.
Varmış, bəlkə, kimsə onu özləyən,

Varmış, bəlkə, kimsə onu gözləyən
Onunçün də çırpıb özün dağ-daşa
Öz ömrünə ömür qatdı eləcə,
Bu çay hara axıb getdi beləcə.
Bu çay hara axıb getdi beləcə...

***03.03.2025***

## BİR PAYIZ DA YOLA SALDIQ BELƏCƏ

Başladı payızın yağış nağılı,
Təbiət yuyundu toz-torpağını.
Quşlar-köçərilər köçüb getdilər,
Qalanlar gözləyir qış növrağını.

Ahıllıq bürüyüb çölü, çəməni,
Dəlisov küləklər həlimləşibdi.
Ağaclar mürgülü baxışlarıyla
Bir az da, bir az da gözəlləşibdi.

Bulaqlar astaca pıçıldaşırlar,
Qorxurlar mürgüsü qaça dağların.
Nəğməli çayların dodaqlarında
Havası duyulur şaxtanın, qarın.

Təbiət başlayıb payız nağılın
Çiskinli, dumanlı havası ilə.
Payızsa kövrəlib əlvida edir
Gələn görüşlərin səfası ilə.

Bir payız da yola saldıq beləcə,
Xonçası əllərdə köçən qız kimi.
Nigaran-nigaran əl eyləyirik
Göy üzündən axan bir ulduz kimi.

## QIŞ LÖVHƏLƏRİ

Təbiət  uyuyub qış yuxusuna,
Ağaclar qırovdan çiçəkləyibdi.
Cığırlar itibdi qar topasında,
Quşlar da yem üçün qəribsəyibdi.

Bürünüb ağ tülə dağlar, dərələr,
Zirvələr sükutda mürgü döyürlər.
Gözü yolda qalan ürkək təpələr,
Bahar sorağıyla yol gözləyirlər.

Torpaq nəfəs alır qış yatağında,
Hərarət bürüyüb yorğun canını.
Çaylar sakit-sakit gumuldanırlar,
Bulaqlar unudub həyacanını.

Döyür qapıları qış püsəkləri,
Arabir xəfifcə əsir külək də.
Hərdən duman gəlir, hərdən çən gəlir,
Yellənir ağaclar sakit, ahəstə.

Bu qışın qışlığı başqa bir aləm,
Canlı da, cansız da öz aləmində.
Bir şair dünyası heyrət içində,
Çaşıb, çabalayır söz aləmində...

***28.01.2026***

## BAŞIN UCA OLSUN...

Güllər açıb, ətir saçır aləmə,
Bahar gəlib, ana yurdum güllənir.
Novruz gülüm, qar çiçəyim, nərgizim
Dil açaraq şirin-şirin dillənir.

Gül-çiçəyə bürünübdü təbiət,
Kəpənəklər çiçək-çiçək dolaşır.
Bal arısı hər çiçəkdən bal yığır,
Böcəklər də nəğməsiylə yarışır.

Lalələr, reyhanlar, tül örpəklilər,
Oxşayır çəməndə xalı rənginə.
Təbət uyduqca şeh nəfəsinə,
Dönür bulaqların xoş ahənginə.

Nə qədər gözəlsən, canımız Vətən,
Hər qarış torpağın cənnətdi, cənnət.
Başın uca olsun, ana təbiət,
Hər an yetirirsən bir yeni nemət.

***Batabat yaylağı,***
***28 may 2023.***

## PAYIZ NAĞILI

Başladı payızın yağış nağılı,
Təbiət yuyundu toz-torpağını.
Quşlar-köçərilər köçüb getdilər,
Qalanlar gözləyir qış növrağını.

Ahıllıq bürüyüb çölü, çəməni,
Dəlisov küləklər həlimləşibdir.
Ağaclar mürgülü baxışlarıyla
Bir az da, bir az da gözəlləşibdir.

Bulaqlar astaca pıçıldaşırlar,
Qorxurlar mürgüsü qaça dağların.
Nəğməli çayların dodaqlarında
Havası duyulur şaxtanın, qarın.

Təbiət başlayıb payız nağılın,
Çiskinli, dumanlı havası ilə.
Payızsa kövrəlib əlvida edir
Gələn görüşlərin səfası ilə.

Bir payız da yola saldıq beləcə,
Xonçası əllərdə köçən qız kimi.
Nigaran-nigaran əl eyləyirik
Göy üzündən axan bir ulduz kimi.

***12.11.2024.***

## KÖVRƏKDİR BAR AĞACLARI

Kövrəkdi bar ağacları,
dəyməyin siz xatrinə.
Soyuğa, qışa dözməzlər,
qoymayın çinar yerinə.

Çiçək-çiçək açılanda
oxşarlar su sonasına.
Barlananda budaqları
bənzərlər el anasına.

Bir az utancaq olurlar,
Bir az da həlim, mehriban.
Şirin-şəkər təbəssümü
Olur təzə zövq yaradan.

Hər ağacın öz ətri var,
Barının da dadı özgə.
Xəlvət olcaq bir-biriylə
dərdləşirlər bəs deyincə.

Gecələri sakit-sakit
mürgü vurur nəm gözləri.
Səhərin dan yellərində
Gülüş saçır nur üzləri.

Onlar ruzi, bərəkətdir,
Həm də arxa, köməkdilər.
Ehtibarda, sədaqətdə
əvəzsizdir və təkdilər.

Toxunmayın, dəyməyin siz
Bar verənlər ürəyinə.
Çünki illactək yaranıb
İnsanlığın gərəyinə.

## UNUTMA Kİ...

Axır vida yolum düşdü dağlara,
Ömrümün boranlı, qarlı çağında.
Çarə yox ki mən sinəsi dağlara,
Qalmadı bir çiçək bağca-bağımda.

Çox gəzmişdim o dağları bir zaman,
Yolağına, çalağına bələddim.
Hayanına hayan idim ürəkdən,
Cəfasına əyilməzdi nur qəddim.

Sanırdım ki, dağlar anam, atamdı,
Sirr yerimdi, ərk yerimdi əzəldən.
Üzü dönmüş bu fələyin üzündən
Əlim çıxdı o müqəddəs gözəldən.

İndi təpə, təpəciklər həmdəmim,
Nə sevincim, nə kədərim bəllidi.
Bir təklik var, tənhalıq var içimdə,
Bu da mənə bir ümid təsəllidi.

Ay Xanəli, çox da zilə çıxma sən,
Tale də sən, qismət də sən, bəxt də sən.
Unutma ki, karvan adlı köçdəsən,
Bir gün o yan, bir gün bu yan...
Bax da sən!!!

## ELDƏN SORUŞ...

Mənim düşmənim də, dostum da özüm,
Nə dost axtarmışam, nə də ki düşmən.
Özümdə axtardım yaxşı-yamanı
Heç xətər görmədim kimsə özgədən.

Mən həddimi bildim həddi biləndən,
Soyuq su qatmadım özgə aşına.
Kimsənin haqqına girmədim heç vaxt,
Əl açmamışam da öz qardaşıma.

İstinad nöqtəmdi öz ağlım-huşum,
Onlardır uçmağa qoşa qanadım,
Onunçün də hələ, şükür Allaha,
Kimsənin yanında xəcil olmadım.

Bunu çox demişəm, çox da yazmışam -
Çox da əl tutmuşam "dilsiz-əlsiz"ə.
Yaxşılığı dilə gətirmərəm heç,
Elə sözgəlişi söyədim sizə.

Mənə də əl tutub ər oğlu ərlər,
Onların əlinin suyun içmişəm.
Vallah, belə demək yersizdir bəlkə,
Çoxunun yolunda candan keçmişəm.

...Oxucum, zənn etmə bir mələyəm mən,
Mən də bir insanam insanlar kimi,
Haqqın tərəzisi elin gözüdür,
Məni eldən soruş bilənə kimi.

***15.06.2026.***

## HƏLƏ ÜMİDLİYƏM...

Özümdə gəzmişəm özümü ancaq,
Özgə cilidində nəyim var mənim.
Ən çətin məqamda, ən çətin anda,
Mənə arxa olub mənim kimliyim.

Yaxşıyam, yamanam, dəliyəm, gicəm,
Hər kiməm, hər nəyəm-mən elə buyam.
Bəzən sızqa bulaq, xəfif bir mehəm,
Bəzən sədlər yıxan dəlisov çayam.

Hərdən elə halım, vaxtım olub ki,
Özümü öz əlim çəkibdi dara.
Hərdən də ən cılız, düşük fikirlər
Məni məndən alıb qoyub avara.

Hər günün, hər anın öz havası var,
Hər bir havaya da cətindir uymaq.
Şairin havası havalananda
Qartal qanadları bilmir yorulmaq.

Heyif ki, qanadı qısıq olanlar
Göylər qartalına daş fırlayırlar.
Ucuz şöhrətlərin yol yolçuları
Haqlının haqqını qamarlayırlar.

Bəlkə də, xoşbəxtlər xoşbəxtiyəm mən -
Öz adım, öz yolum, həm öz imzam var.
Nə vaxtsa bir qərib axtarsa məni,
Öz adım, öz yolum, imzamda tapar...

Bu da bir təsəlli, bu da bir ümid,
Ancaq taleyin də qisməti özgə.
Hər arzu, hər istək göyərmir axı,
Hələ ümidliyəm, göyərdi bəlkə...

***13.06.2026***

## YURDUMUZA BAHAR GƏLİR

Hava yaman havalanıb,
Yer süpürür qaş-qabağı.
Çən tutubdu dağ-dərəni
Görmək olmur solu-sağı.

Arabir də çaxır şimşək,
Narahatdır buludlar da.
Təbiətin şıltaq çağı
Hər il olur ilk baharda.

Həzin-həzin əsir hərdən
Qışdan qalma quru sazaq.
Şaxta iyi gəlir bəzən
Elə bil ki qarlayacaq.

Dəli-dolu yaşda olan
Təbiətin bu çağları
Oyadır qış yuxusunda
Mürgü vuran sərt dağları

İnsanlar da qaynarlaşır
Coşub-daşan həvəsiylə.
Yurdumuza bahar gəlir
İlıq-isti nəfəsiylə.

***05.05.2026***

## BU ANA TƏBİƏT...

Yudu meşələri, yudu bağları,
Bu selləmə yağış, bu nağıl yağış.
Yerlərin göylərə töhfəsi kimi
Torpaq da dil açıb söylədi: "alqış".

İllərdi qalmışdı yağışa həsrət
Köksü cadar-cadar bu ana torpaq.
Ağaclar da yaman qısırlaşmışdı,
Nə çiçək açırdı, nə də ki yarpaq.

Gözlərin sıxdıqca qara buludlar,
Qaynaşır bulaqlar, çağlayır çaylar.
Yollara, izlərə nur səpələnir,
Yamyaşıl boyanıb cığır dolaylar.

Bu bərəkət yağış, bu ruzi yağış,
Çiçəyin çırtladır şux təbiətin.
Belə gözəlliyin sehrinə dalmaq,
Varlığına dönür şeirin, sənətin.

Pöhrəli budaqlar barlanır yenə,
Yarpaqlar yağışdan sırğalanıbdır.
Ürəyin doysa da, göz doya bilmir,
Elə bil göylərdən nur ələnibdir.

***26.05.2026.***

## QƏLƏM QALIB SÖZƏ HƏSRƏT...

Neçə ildir qış görmürük,
Təbiət də qısırlaşıb,
Nə çovğun, yağış görmürük,
Bulaqlar da kasıblaşıb.

Bar ağacı barsızlaşıb,
Utanır üzə baxmağa.
Bal arısı balsızlaşıb,
Həsrətdir çiçək tapmağa.

Dağlar  qəribsəyib qara,
Onların da gülmür üzü.
Mürgü vuran təbiətin
Bitib sanki şair sözü.

Bir çiçəyin ətirindən
Barlanırdı şeir-sənət.
Bəlkə elə bununçün də
Qələm qalıb sözə həsrət...

***10.01.2024.***

## ÇƏTİNDİR

Nə qəfil görüşdü, görüşdük yenə,
Aradan əlli il keçəndən sonra.
Çox çətin tanıdıq bir-birimizi,
Yadlar tək hal-əhval tutandan sonra.

Bəlkə də bu da bir tale qarğışı,
Qismətin sonuncu əzabı idi.
İllərcə yuxusuz gecəmiz olan
Nakam sevgimizin turş dadı idi.

Əllərin, gözlərin, qaşın-qabağın,
Şaxtada don vuran çiçək kimiydi.
Ümidlər, arzular, sonsuz diləklər
Budaqdan üzülən ləçək kimiydi.

Aradan əlli il...
                    əlli il keçib,
Hələ də utanıb qaçırırıq göz.
Elə o vaxtlar da, elə indi də
Elə bil qəhətə çıxmışdı hər söz.

... "Heyif o sevgiyə, o məhəbbətə"[1]
Qədrini bilmədik, bilmədik niyə??!!
İndi o sevgilər, o məhəbbətlər
Yağlı əppək olub çəkilib göyə.

---

[1] misra Nüsrət Kəsəmənlinindir.

Baxışlar pərişan, baxışlar üzgün,
Daha əlimizdən nə gəlir indi.
Ortada bir nakam sevgi ağlayır,
Onu kiritməksə...
                    daha çətindir!!!

***31.03.2026.***

## BİR TƏƏSSÜRAT XATİRƏSİ

Bir nagəhan gözəl çıxdı qarşıma,
Huşum getdi, ağlım çaşdı, susdu dil.
Naz-qəmzəsi, xoş baxışı, duruşu
Mələklərin mələyiydi elə bil.

Əmlik ceyran balası tək bu ceyran,
Çalın-çarpaz bir dağ çəkdi sinəmə.
Saldı məni gözlərinin oduna,
Kim bilir ki, kim nə çəkir, kimə nə.

Vurulubdu öz-özünün hüsnünə,
Yerişindən, duruşundan xəbərsiz.
Bilmirsən ki, bu gözəlin qəsdi nə?..
Ona mail nə qədər var-qədərsiz.

Şair könlüm, vurulmusan, deyəsən.
Heyif, daha bağlanıb yol-izlərin.
Ömür keçib, zaman keçib, gün keçib,
Qoy kam alsın barı "çıxmış" gözlərin...

***22.04.2026.***

## QAYIT

*Əli Kərimin xatirəsinə*

Sənin taleyinçün nigaranam mən,
Gör bir nə vaxtdır ki, görüşmürük biz.
Biz ki anlamışdıq bir-birimizi,
Ortada olmayıb inciklik, nə söz.

Qalıb xatirələr duyğularında
O kövrək baxışlar, o kövrək anlar.
Bizi qınayan o havayı kəslər
Hicran əzabını çətin ki anlar..

Hər günün öz rəngi, öz ahəngi var,
Mənim günlərimsə eyni rəngdədir.
Axşamım axşamdır, səhərim səhər,
Hamısı bir dəstdə, bir çələngdədir.

Biz ki nə yatmışdıq, nə yuxu görək,
Tale saldı bizi burulğanına.
Gözü yaşlı qalan qönçə arzular,
Dözmədi şaxtalı qış boranına.

Nə ünvanın bəlli, nə də sorağın,
Elə bil sən adlı adam yox imiş.
Mən səni qınaya bilmirəm, axı,
Görünür, taleyin bəxti beləymiş.

Yenə də səninçün nigaranam mən,
Eşitsən səsimi səsimə səs ver.
Ölmüsən, qalmısan, bilmirəm ki mən,..
Qayıt ruhumuza təzə nəfəs ver.

***24.11.2024.***

# TURAN DASTANI



## BİR YATMIŞ VULKANDIR QOSQOCA TURAN

Yenə yerə, göyə sığmır inadım,
Yenə coşub daşır dəlisov qanlar.
Yenə Xankəndimdə, Xocavəndimdə..
Qoşa at oynadır sarıyla yanlar.

Hələ soyumamış şəhid qanları,
Hələ ayaqdadır şəhid məzarlar.
Sən öz həddini qan dişi canavar,
Yenə qan çanağın başında çatlar...

Səni gətirdilər qoca Qafqaza
Üfunət qoxusun abu-havası.
Gəlişin min bəla, fəsad gətirdi,
Yarandı Qafqazda iblis yuvası.

Sən ey yurd-yuvasız, səfil, sərgərdan,
Qovuldun hər yerdən pis əməlinlə.
Yediyin çörəyə dönük çıxaraq
Sığındın qoltuğa qara gününlə.

Qucaq açdı sənə “dindaşlarımız”,
Atdı ayaq altda dini, Quranı.
Heyif ki, yadına salmadı onlar
Ulu babaları bədnam Daranı.

Min illər qapımda yallanan yalaq
Düşmən qapısında quyruq buladın.
Quyruğun qapıda qalanda ancaq
Mənim ayağıma düşüb uladın.

Bu da bir tarixdir, keçib gedəcək...
Yenə diz çökəssən qarşımda mənim.
Yenə yalmanassan tülkü sayağı,
Çünki ləyaqətin olmayıb sənin.

Bir əlin təsbehli, bir əlin qanlı
Səcdəyə gedirsən: “Allahu-Əkbər”.
Sənin hər oyunun, hər fırıldağın
Unutma, daş olub başına düşər.

Vermisən sarıyla yanla başbaşa
Mənə “xox” gəlirsən hər addımbaşı.
Ancaq həqiqəti qanmamısan sən:
Mən TÜRKƏM, başsızın kəsmişəm başın.

Varaqla tarixi bir ayıq başla
Sən gəlib atəşlə, odla oynama.
Tomristək qanında boğmuşam səni
Yalandan kükrəyib coşub qaynama...

Sənə haram olsun o din, o Quran,
Gözünə duracaq qıldığın namaz.
Sən yandan şərəfsiz, yandan da alçaq,
Yandan da həyasız zatsan, utanmaz!!!

Sən hələ bilmirsən kimsən, nəçisən,
Kökündən xəbərsiz xəbis, riyakar.
Səni mən qaldırıb “adam” elədim,
Özündən bixəbər gözü, könlü dar.

Viranı İrana çevirən mənəm.
Sənə mən vermişəm göz işığını.
Xətai, Nadir şah, Qacar, Səttarxan.
İrana qaytardı yaraşığını.

Sən isə İranı etmisən viran,
İndi qalmayıbdı daş üstə daşı.
Gətirib çıxartdın ocaq başına
Özün tək oğrunu, o quldurbaşı.

...Quran başım üstə, Turan önümdə,
İmanım inamla qoşalaşıbdır.
Mənim birliyimi, dönməzliyimi
Görən dinsizlərin ağlı çaşıbdır.

Yarıb qaranlığı gur işığıyla
Əfrasiyab dediyin o Alp Ər Tonqa.
Gəlir boran ilə, gurşad, tufanla
Verməyə yenə də haqqı nahaqqa.

Gəlir bayrağını qaldırsın daha
TURAN dediyiniz o məmləkətin.
Bir də tarixlərdə dastana dönmüş
Yenilməz o uca TÜRKÜN qüdrətin.

Tanrı ordusudur Türkün ordusu,
Odur ədalətin, haqqın dayağı.
Odur Gündoğandan Gün batanadək
Haqqın qibləgahı - İslam bayrağı.

Sənsə o bayrağı “bayraq” eyləyib,
Satdın imanını murdar yanlara.
Dini, “imanını”, “namus”, “arını”
Qurban eləmisən ölü canlara.

Sən İslam bətnində bir qara yara,
Saldın İslamı da hörmət, dəyərdən.
İndi üzün yoxdur haqqa baxmağa,
İndi qovulursan, şeytan, hər yerdən.

Bağlandı üzünə dost qapıları,
Düşmən qapısında xoş keçər günün.
Gərdiş eyləsən də iblissayağı,
Bəllidir amalın, bəllidir yönün.

Nə sağın qalıbdır, nə də ki solun,
Özün öz içində çatlayacaqsan.
Təkcə bir yanlardır “köməyin”, “qolun”
Çox çəkməz, yanı da anlayacaqsan.

Görəssən nankordur o da sənin tək,
Çünki bir kökdəndir soyun, soydaşın.
Donuzxana etdi İslam məscidin
Sənin öpüşdüyün Vartan qardaşın.

Sənin imanın da, “dinin” də yalan,
Dinin qurgenlərin dinidir bəlkə?...
43 ildir “islam” pərdəsindədir
Sənin tək xaçpərəst, saxta bir ölkə.

İndi dəyişibdi zamanın rəngi,
Daha cırılmayan maska qalmayıb.
Sənin tək çörəyi diz üstə olan
Tarixdə elə bir ölkə olmayıb.

...Mənim azadlığım, müstəqilliyim
Sənin də yuxunu qaçırıb çoxdan.
Bil ki, haqqı üçün çarpışan millət
Səni kül eyləyib salacaq taxtdan.

Özün öz abrına kor olmaqdansa,
Aslan yatağına çöp uzadırsan.
Min dəfə əhlətə dəysə də başın
Nə abır edirsən, nə usanırsan.

Bir yatmış vulkandır qosqoca Turan.
Qalxıb püskürəndə qiyamət olur.
Sən öz həddini bil, həddini aşan!..
Sonrası...
Sonrası...
Müsibət olur...

***03.05.2022.***

## İNDİ BÜTÖV VƏTƏN VAR

*Məmməd Araz ruhuna.*

Güney  qalxıb ayağa,
Yatmış vulkan oyandı.
Oyanışın mübarək!

İki yüz əlli milyon
Türk keşikdə dayanıb-
Bir canda çarpan ürək.

Torpaq mənim torpağım,
Bayraq mənim bayrağım -
Ucalığa gedən yol.

O bayrağı qaldıran,
O torpağı qoruyan
milyon-milyon məğrur qol.

Bu oyanış dağ seli
Gücü yer-göy oynadır,
tarixi yaza-yaza.

Hər ürək od püskürür
Vətən qeyrət qalası
hər oğula, hər qıza.

Yağı düşmən illərdi
Taladı od yurdumu -
torpağımı, daşımı.

Zaman o zaman deyil,
İndi qardaş qoruyur
öz doğma qardaşını.

Daha Güney, Quzey yox -
İndi bütöv Vətən var -
Yenilməz Vətən andı.

Mübarəkdir, Təbrizim,
Urmu, gözümüz aydın,
Yatmış vulkan oyandı!!
Yatmış Vulkan oyandı!!!

***24.03.2025***

## MƏN TÜRK ÖVLADIYAM...

*Azəri-türk qızının dilindən*

Anam Burla Xatun, nənəm Tomrisdir,
Oddan yaranmışam, od qızıyam mən.
Öyüdüm alınıb Sara Xatundan,
Yerin ülkəriyəm, göy ulduzuyam.

Varaqla tarixi sətirbəsətir,
Hər varağı mənim qan yaddaşımdır.
Mən türk övladıyam kökün dərində,
Gündoğan, Günbatan can sirdaşımdır.

Min dastan bağlanıb şan-şöhrətimə,
Keçdiyim yollarda izim qalıbdır.
Harda binə qurub yurd salmışam mən
O yurdda ocağım, közüm qalıbdır.

Nə yerə, nə göyə sığışmadım mən,
Tarixi mən yazdım tarixdən öncə.
Vətəndir, millətdir eşqim, amalım,
Bu eşqdir yaşadan məni ölüncə!..

## TURAN QALXIR AYAĞA

*Ulu türk! Sənin ucalığının hüdudu yoxdur.*
**Mustafa Kamal Atatürk**

Mən Turan şairiyəm!..
Həqiqətin aşiqi,
Zəfərin dan yeriyəm!..

Mən Turan şairiyəm!..
Tanrının gur işığı,
Cənnətin Kövsəriyəm!..

Közüm köz olub mənim.
Sözüm söz olub mənim,
Çağlayan bir türküyəm...

Tarixlər yaşıdıyam,
Köküm çox dərindədir...
Onuncün də diriyəm.

Dünyası mənə ilk ev,
Göyü də qübbəm olan
Kainatın piriyəm.

Azadlıq bayraqdarı,
Köləliyin qənimi,
Bəşəriyət hürrüyəm...
Mən Turan şairiyəm!..
Mən Turan şairiyəm!..

***

Əsr təlatümdədir, çırpınır öz içində,
Turan qalxır ayağa indi başqa biçimdə.
Yerdən, Göydən müjdə var ərənlər ərəninə:
“Bəşər səcdə edəcək Turançılıq dininə”.
Bu din dinlər dinidir, gəlibdir yaranışdan,
Bu dinin hər ayəsi doğulubdur savaşdan.
İnsan, insanlıq üçün savaşda olub hər an,
Ancaq bircə yol belə tökülməyib nahaq qan.
Bu dinin peyğəmbəri Alp Ər Tonqa Xaqandır,
Xaqanların xaqanı, Cahan içrə Cahandır.
O, Allahı bir görüb, Göyə Tanrı deyibdir.
Əyninə Tanrı rəmzi göy libasın geyibdir.
Bilibdi ki, göy rəngdə bir yaratmaq eşqi var,
Yaradanın eşqindən yaranmışda nəsə var.
İnsan yaranışından yaradanın quludur,
Onunçün də Yaradan ululardan uludur.
Bu ulu qüvvət verdi türkə hörmət, ehtiram,
Türkü etdi dünyaya sahibi - natiq Quran.
Bir əliylə endirən, bir əliylə qaldıran
Türkün gücü edibdi şərin mülkünü viran.
Tanrı türkü göndərib ədalətin rəmzitək,
Dünyaya düzən gəlsin türkün əliylə, gerçək.
Min illərdir türk oğlu Şərqin, Qərbin ağası,
Ulu türksüz olmayıb dünyanın toyu, yası.
Bütün başlar, başçılar türkə səcdəyə gəlib,
Türk də kimin kimliyin çox ustalıqla bilib.

Bəlkə elə bununçün Məhəmməd Mustafadan
Hökm gəldi bəşərə:
“Türkə asi olmayın”, söyləyibdi Yaradan.
Harda bir türk yaşarsa, demək, orda haqq yaşar,
Haqq olan yerdə isə ədalət coşub daşar.
Göy türk imperatoru böyük Bilgə Kağanın
Fərmanı dolaşırdı dünyanın dörd bir yanın:
“Göydən göy çökmədikcə, Yerdən Yer batmadıqca
Türk törəsi pozulmaz, türk oğlu yatmadıqca”.
Türkə çağırış etdi ərənlər əri Kağan:
“Ey türk, özünə qayıt, sən özünə qayıtsan,
Daha ulu, möhtəşəm, daha böyük olassan”.
Türk özünə qayıdıb elə yarandığından,
Qoruyubdu bəşəri ölümdən, qırğın, qandan.
On altı imperiyanın, iyirmi dövlətin
Qurucusu türk olub, daha cəsur və mətin.
Tarix qansız, amansız, tarix qəddar, baş kəsən,
Bəzən İblisə uyub fitnə toxumu əkən.
Ən qorxulu çağında, Çaldıran torpağında
Qardaş qanı tökdürüb türkün türk ocağında.
Tarixin dönəmində çox iblislər doğulub,
Türkü türkə saldıran bədxahlar da çox olub.
Lakin türk öz türklüyün qoruyub zaman-zaman,
Ona dönük çıxana vaxtında uddurub qan.
Varaqla bir tarixi, türkə dönük çıxanlar,
Hər əsrdə türk olan türkün öz öndəri var.
Türkün şanlı bayrağı, bayraqdarı Atatürk
Söylədi:
“Türkün dostu dünyada türkdür elə ən böyük”.
Bir ucu Gündoğandan, bir ucu Günbatandan,
Halay qurub hay vuran türkdür gəlib bir qandan.

Kükrəyib çağlayanda atının kişnərtisi,
Göylər də vəcdə gəlib ucaldardı bu səsi.
İndi bu səs - səs olan “Bayraqdar”ın səsidir,
Türkün türkə əvəzsiz ən böyük töhfəsidir.
Türkün “Qızıl alması” qalxanda göy üzünə,
Bir barış gətirəcək dünyanın hər üzünə.
Bu gün türkü yetirən, şərəf, şöhrət və şana
Türkün böyük zəkası daha sığmır Cahana.
O dönməz iradəli, məğrur, uca, yenilməz,
Vulkan kimi möhtəşəm, dağlar kimi əyilməz,
Türkün türk qüdrətini qaytardı öz-özünə.
Türkə kəc baxanların bıçaq sancdı gözünə.
Onun cəsarətində Yerin, Göyün gücü var,
Onun böyük amalı  TURAN adlı bir  diyar.
O bir Tanrı gücüylə qaldırmaqla ayağa
“Türkəm” deyən hər kəsi döndərdi ulu dağa.
Dağlar dağa qovuşub yandırırlar çırağı,
Qaldırırlar göylərə Turan adlı bayrağı.
O bayrağın önündə dayanıb məğrur-məğrur
Mənim Azərbaycanım, baxışında min qürur.
Oddan keçib od olub od daşıyan millətim,
Qalib, zəfər adıyla dünya gəzir şöhrətin.
Bu şöhrəti şöhrətə mindirən türk qardaşım,
Qoy həmişə ucalsın göylərə məğrur başın.
İndi əlli milyonuq türk toplumu içində,
Əlli milyonluq ordu yerin, göyün gücündə.
Qazax, qırğız, özbəyin azadlıq amalına
Qoşulub türkmən, uyğur bir Turan cəlalına...

...Turan qalxır ayağa, başlayır Türk erası,
Bundan sonra bitəcək “böyüklərin” qovğası.

Çin səddi yaxşı bilir türkün böyüklüyünü,
Bilir türklə açılıb dünyanın hər düyünü.
Daha kimsə kimsəyə “mənəm, mən” deyə bilməz,
Türkün həddi olmadan özlərin öyə bilməz.
Onda bəşər biləcək yaşamağın dadını,
Onda hər kəs biləcək öz nəslinin adını.
Biləcəklər dünyada, sən demə, həqiqət var,
İnsanı insan edən ədalət, ləyaqət var.
Çəkiləcək ayağı “tülkü siyasilərin”,
Hər kəs Haqqın önündə tapacaqdır öz yerin.
Dünya türk işığıyla süslənəcək günbəgün,
Başlanacaq dünyada yeni mizan, yeni gün.
O günün hərarəti qızdıracaq hər kəsi,
Tutacaqdır dünyanı insanlığın haqq səsi.

Turan qalxır ayağa, sayalı olsun adı,
Kəsiləcək göz yaşı - insanlığın fəryadı.
Turan qalxır ayağa, bunu Yer, Göy də bilir,
Dünyaya yeni nəfəs, dünyaya işıq gəlir.

Turan qalxır ayağa!...
Dünyaya Turan gəlir!...,
Dünyaya iman gəlir!...
Dünyanı quran gəlir!...

***08-09.06.202***

# ATA

*(xatirə-poema)*



*Əziz oxucu, "Ata" xatirə-poemanı mənə yazdıran dostum, iman və ürfan əhli Çingiz Süleymanovun gördüyü yuxu oldu. O, mənə dedi ki, bu yaxınlarda axşam namazını qılıb yatdım və yuxuda gördüm ki, dolu bədənli, ağsifətli bir kişi mənə dedi, Xanəli Kərimlini tanıyırsan? Cavab verdim ki, bəli, tanıyıram. Dedi, mən onun atasıyam, adım da Abbasəlidir. Ona de ki, niyə mənim adımı kitabına salmır? Bu kağızı da ona verərsən.*

*Kağızı aldım və gördüm ki, yazılıb:*

*"Mən nurdan gələn nur oğluyam,*
*Xanəli Abbasəli oğluyam".*

*Yuxudan ayılıb sənin "Vikipediya" səhifənə baxdım: həqiqətən də atanın adı Abbasəli imiş.*

*04.09.2021.*

Sifarişin çatdı, ay əziz Atam!
Mənim könül dostum Çingiz qardaşdan.
Sən mənim canımda, qanımda ilkin,
Sən heç vaxt, heç zaman çıxmazsan yaddan.

Mən sənin adını kitabıma yox,
Qəlbimin başına yazmışam, Ata.
Sənin sifarişin, sənin tövsiyən
Təzədən qaytardı məni həyata.

Dünyadan köçəndən qırx beş il keçir.
Bir dəfə yuxuma niyə  gəlmədin?
Axı, mən səninçün təşnə-paraydım...
Nələr çəkdiyimi niyə bilmədin?

Bu bir giley-güzar deyildir, əsla.
Haqqım yox ki, səni çəkim qınağa.
Mən sənin adının gölgəsindəcə
Yaşayıb, yaradıb çatdım bu çağa.

Hər nəfəs aldıqca, nəfəs verdikcə
Səni öz yanımda hiss etmişəm mən.
Bu həyat yolunda çətində, darda
Səni neçə kərə  kəşf etmişəm mən.

Harda soruşublar: "Kimin oğlusan?"
Adını deyəndə xoş üz görmüşəm..
Mən sənin adına, sanına görə
Hər nə iş görmüşəm, düz iş görmüşəm.

Yaltaqlıq, xəbislik bilməmişəm mən.
Əl də açmamışam bir tikə üçün.
Kimsənin haqqına girməmişəm mən,
Yaşadım sənin tək ömrümü bütün.

Bildim ki, hər nə var gəlib-gedəndir,
Bir təmiz ad qalır, bir təmiz ünvan.
Yaxşı da, yaman da ölüb-itəndi,
Elə yaşayım ki, çirklənməsin qan.

Qanı çirklilərdən nə qədər bəla
Görübdü, bu başı bəlalı Vətən.
Oğullar itirdik, şəhidlər verdik
Bitib-tükənmir heç məlalı-Vətən.

Biz tək ata-oğul deyildik, Ata,
Bir canda döyünən ürəkdik, ürək.
Sənin məsləkdaşın, yol yoldaşındım.
Mənim yuxuma sən gələrdin, gərək...

Sən mənə nur dedin, nurdan doğulan.
Elimin, günümün saf işığıydın.
Mahalda, kəndində, eldə, obada
Xeyir-şər məclislər yaraşığıydın.

Bir darlıq olanda göz gəzirdilər -
Abbasəli kişi, görən, hardadır.
İnsanın dəyəri, şərəfi, şanı
Təmiz ad, düz ilqar, etibardadır.

Ay ata, ay mənim pirim, ehkamım,
Səndən sonra dünya qarışdı yaman .
Başımız daşlardan daşlara dəydi.
Nə elat əl tutdu, nə də ki zaman.

Bir vaxtlar uğrunda qanlar tökdüyün
SSRİ adlanan dövlət dağıldı.
Bunun səbəbini yazsam çox çəkər,
Bu uzun həngamə, uzun nağıldır...

İllərlə qaldıq biz yol ayrıcında,
Heçimiz, köçümüz çıxmışdı əldən.
Səsimiz çıxanda, haqqı deyəndə
Qınaq edirdilər bizi hər yerdən.

Nə qanun qalmışdı, nə də ki qayda,
Hərə bir "bəy" idi öz dərəsində.
Sahibsiz qalmışdı Vətən, vətəndaş
Qoruna bilmirdi öz ölkəsində...

...Sən qoyub getdiyin o kənd-kəsəkdən
Əsər-əlamət də belə qalmadı.
Köçənlər köçdülər, ölənlər öldü...
Bir kimsə təzə bir yuva salmadı.

Köçüb dağıldılar diyarbadiyar
Bir tikə çörəyin ucbatındanca.
Yadlaşan qohumlar, dostlar, qardaşlar
Hələ yol gedirlər ümid dalınca.

Yadında qalıbmı kənd su arxları
Aşardı, daşardı gen zəmilərə.
Suçu - suçu idi, bağban da bağban
Fərəhlə baxardı ildən illərə.

O vaxtlar mən uşaq, körpə olsam da,
Yaxşı yadımdadır briqadirliyin.
Bir atın var idi, alını səkil
At üstə keçirdi iş gündəliyin.

Bilirdin kim necə torpaqcanlıdır.
Əlindən, dilindən daş çiçək açar.
Ürəyin günəş tək yaxıb-yandırar
Gecəni səhərə dirigöz açar.

Yaxşı yadımdadır, qapı qonşumuz
Məmmədqulu kişi, İsmayıl kişi.
Doğma qardaş idi - daşıqçıydılar.
El malına dönük çıxmadı onlar,
Halaldan halala bir ad qoydular.

O daşıq yolları ağ işıq kimi
*(İndi də gözümün qabağındadır)*
Zəmidən xırmana işıq saçardı.
Heşan çəkilərdi, vəl qoşulardı,
Sonra xırmançılar sovruq atardı.

Cüt əkən, su çəkən, naxır otaran
Gön çarıq geyərdi bağı qotazlı.
Tarlada, bağçada, bağlı-bağatda
Torpaq dil açardı şirin avazlı.

Çörəyini daşdan çıxaran kəndli
Torpağı əliylə dənərləyirdi.
Toxumu səpdikcə qara şumlara
Dillər də "Allahu-Əkbər" deyirdi.

Bir candı, bir qəlbdi sanki el, elat.
Kimsənin kimsədən yoxdu gizlini.
Bir süfrə başında şirin söhbətlər,
Alırdı qoynuna yaxın-özgəni.

Hamı bir nizamda, bir intizamda
Cəbhəyə yollanan əsgər kimiydi.
Torpağı suvaran alın tərləri
Tarın şah pərdəsi, sarı simiydi.

Halal zəhmətinin bəhrəsin görcək
Hamı sevinirdi, bayramlaşırdı.
Böyük gələcəyə, xoşbəxt günlərə
Nədənsə, hamıda bir inam vardı.

Elə bil o vaxtlar azar, bezar da
Qəhətə çıxmışdı kənddən, kəsəkdən.
Hərdən eşidərdik filənkəs kişi
Atı qovan zaman düşüb yəhərdən.

Hərə öz-özünün həkimi idi,
Doktor da, cərrah da yalandı onda.
Təbiət insanın loğmanı idi,
Tuturdu əlindən xəstə olanda.

Bir də halallıqdır, qabarlı əldir
Bütün xəstəliyin dava-dərmanı.
Bir işin qulpundan yapışan zaman
Coşurdu insanın bədəndə qanı.

Sən mənə halallıq dərsi öyrətdin,
Dedin ki, halalın ucadır başı.
Alnı açıq olar, sözü də ötkəm,
Etibarlı olar dostu, sirdaşı.

Səndən örnək aldım əkin əkməyi,
Hər gülə, çiçəyə sığal çəkməyi.
Dağda çoban oldum, aranda bağban,
Nə borandan qorxdum, nə də şaxtadan.
Yayın qızmarında, payız fəslində
Qazandım süfrəmə halal əkməyi.

...Yadına gəlirmi, ömrün boyunca
Bənnalıq edərdin, evlər tikərdin.
Kasıba, yetimə daxma tikəndə
Halal zəhmətinin üstdən keçərdin.

Deyərdin, hər kəsin öz ruzisi var.
Bəndəsin ac qoymaz ulu Yaradan.
Kasıbın, fağırın əlindən tutan
Seçən olubdular ağı qaradan.

Özgə tikəsindən doymaz göz, qarın.
Allah  süfrəmizə versin bərəkət.
Haram tikə ilə böyüyən övlad
Vətənə, millətə gətirməz hörmət.

Vətəncanlı olar, haqcanlı olar
Halal ocaqlarda böyüyən övlad.
Vətəni, millәti satar yadlara
Haram tikə ilə yetişən bir zat.

-Ay ata, bilmirəm, yadında varmı,
Ağzının tikəsin verdiyin biri
Nələr gətirmədi başına bir vaxt,
Malını, mülkünü satıb sovdular,
Bizi evimizdən söyüb qovdular.

Bizdən uzaq gəzdi əl tutduqların,
İpin çəkmədilər qudurğanların,
Onda tənhalaşıb təklənən zaman
Sənə dayaq durdu bir qoca anan,
Bir də anamız o fədakar qarın...
Sən yenə sınmadın, heç əyilmədin,
Bir yol da kimsəylə üzə gəlmədin...

Şükür ki, biz yenə artdıq, ağardıq.
Evimiz də oldu, çörəyimiz də.
Nə kin bəsləmədik, qisas almadıq,
Hamıya yer verdik ürəyimizdə

-Hərə əməlinin çəkir hesabın,
Bir az səbirli ol, bir az təmkinli.
Sənə daş atsa da bir əhli-nadan
Yaşama qərəzli, yaşama kinli.

Ən çətin məqamda, ən çətin anda
Çalış dərk edəsən öz kimliyini.

Hər yalın başlara, yalınqatlara
Baş verib itirmə öz mənliyini.

İnsan insanlığın dərk etsə əgər,
Dağlar da diz çökər onun önündə.
Özündən, sözündən xəbərsiz olan
Hörmətdən düşəcək günün birində.

Çalış öz həddini, öz sözünü bil,
Özünü bilməyən bilməz Allahın.
Allahın bilməyən, haqqı bilməyən,
Dərk edib anlamaz suçun, günahın.

Hər şeyə cavabdeh bilsən özünü
Əlindən, dilindən çıxmaz bir xəta.
Kiminsə tikəsin əlindən alsan,
Çətin ki, bu millət, xalq səni tuta...

***

...Bir nur heykəliydin, nurtəbli Atam,
Məni yetşdirdin, bişdim hər işə.
Sən altmış dörd yaşda köçdün dünyadan
Mən isə çatıram indi yetmişə.

Nə ağlım, nə zəkam sən deyən deyil,
Sən bir məktəb idin hər addımında.
Yerişin, duruşun, gülüşün belə
Şirin xatirə tək qalıb yadımda.

İndi xatirələr yaşadır məni,
Atalı, analı qayğısız illər...

Daha fəsil-fəsil görüşüb gedir
O keçən nəsillər, gələn nəsillər...

***

Oxucum, bu çağda, bu dəmlərdə də
Atalı günlərim düşdükcə yada,
Yaxşılar, yamanlar ələnir bir-bir.
İndi haqq dünyada yatır çoxusu,
Bəzisi heç mənim yadıma gəlmir.

Bir çoxu atamla gor qonşusudur.
Qəbirdən qəbirə bir qarış ara.
Burda şəriksizdir hamının haqqı
Burda baxılmır heç şöhrətə, vara.

Bir ibrət dərsidir hər məzar daşı,
Biz fani dünyanın qonaqlarına.
Ancaq düşünürsən: "niyə?", "bəs nədən?"
İnsan yerikləyir insan qanına?"

Çoxumuz bilmirik, bilə bilmirik,
Bizi qandan qana bələdi dünya.
Bir tikə çörəyin qulu eyləyən
Şeytandan qalma bir tələdir dünya.

Ata, bu dünyanı tanısaq da biz,
Hələ də biz onun yedəyindəyik.
Bu nahaq dünyada görüşməsək də,
O haqq dünyasında görüşəcəyik...

Onda bölüşərik dərd-sərimizi
Üz- üzə, diz-dizə, göz-gözə belə.
Nə qədər içimdə çözələsəm də,
Çox sirrin sirləri qalıbdı hələ...

...Sən sinə dolusu söz adamıydın,
Hər sözün bir hikmət, bir dad çalırdı.
Bəzən ilhamınla qoşduğun sözlər
Bizi ovsunlayıb bizdən alırdı.

Mən hələ bilmirəm, niyə o vaxtı
Dediyin nağıllar nağıl idilər.
Hər sözün hikməti, hər sözün içi
Qızıldan qiymətli ağıl idilər.

Gəraylı deyərdin, qoşma deyərdin
Aşıq Ələsgərdən, Aşıq Alıdan.
“Misri” havasına ney kökləyərdin
Qonşular baxardı köhnə barıdan.

Nədənsə, dediyin dastan, nağılda
Haqqı deyənlərin yolu açıqdı.
Sən də haqq deyirdin, haqqa sığınıb
Bəs niyə yoluna şeytanlar çıxdı?

Bəlkə də, o da bir haqq sınağıymış,
Sənin imanını yoxlamaq üçün.
Şükür, hər sınaqdan çıxdın üzü ağ,
Haqqın haqq yolunu saxlamaq üçün.

Bu başı bəlalı insan övladı
Yarımçıq doğulub başdan, binadan.
Kamillər dünyaya tək-tək gəlirlər,
Hər gündə doğulur min əhli-nadan.

Onunçün xeyir-şər tərəzisində
Bəzən ağır gəlir şər duran tərəf.
Haqlı haqlılığın sübut edincə
Min cələ toxuyur şər quran tərəf.

Onda nağıllarda axtarmışıq biz
Haqqın, ədalətin əsl rəngini.
Əli yerdən, göydən üzülən insan
Yaşayıb həyatın öz ahəngini.

Hərdən düşünürəm, daşınıram mən
Niyə o dünyaya "haqq" deyib insan?
Nədən bu dünyamız "nahaq" olubdu?
Yəqin o dünyaya iblis-şeytanlar
Yol tapa bilməyib, burda qalıbdı.

Ancaq Haqqın yolu kəsə yol deyil,
Səbrdir, təmkindir Haqqa gedən yol.
Sən özün deyirdin bunları, Ata,
Haqq düşmən olsa da, haqqa təslim ol.

...Nə isə, nə qədər yazıb-pozsaq da,
Qələmlə açılmaz sirri-Xudanın.
Nahaq nahaqqında, haq da haqqında,
Yerini dəyişər zaman hər anın.

“Hər şeyin zamana ehtiyacı var”-
Deyənlər haqq imiş, haqlı imişlər.
Haqlı da, haqsız da qiyamət günü
Haqqın dərgahına bir gələcəklər.

Yaxşılıq, yamanlıq seçilər onda,
Hər kəs əməlindən alar qiymətin.
Onda özünə də olacaq agah
Necə qoruyubdu öz ləyaqətin.

...Bilirəm, nigaran qalmısan, Ata,
Vətənin, millətin gün-güzarından.
Zamanla, düşmənlə əl-yaxa olduq,
Çıxardıq Vətəni, milləti dardan.

İndi öz sözümüz, öz bayrağımız,
Bir canda döyünən millətimiz var.
Dünyanı heyrətə salan ordumuz,
Tarixlərə dastan şöhrətimiz var.

Mən də o şöhrətin yol yolçusuyam,
Mərmidən qüdrətli söz qələmimlə.
Yazdım bu Vətənin uca dastanın,
Düşmən bağrı yaran öz qələmimlə.

...Baxıram, üfüqdə - göyün üzündə
Bir ulduz bürünüb nur işığına.
O ulduz sənin öz ruhundur, Ata.
Dönüb  dünyamızın yaraşığına...

Qayıtdın ruhuma bir işıq kimi,
Yatmış duyğuları oyatmaq üçün.
Mən səni özümə sarban elədim,
O keçmiş günlərə qayıtmaq üçün.

Dünənim günümlə bir addımlayır,
Böyük gələcəyin şanlı gününə.
Gəlib əsrlərdən Ruhlar ruhları
Qovuşsun Vətənin toy-düyününə.

Nə qədər oğul var, bu cahan vardı
Atalar yaşayır oğullarıyla.
Dönür bu dünyanın möcüzəsinə
Şirin xatirələr, nağıllarıyla.

***10-15.09.2021.***

# BAYATI HAVASINDA



## DÖRDLÜKLƏR

Dağlarımı qar aldı,
Canımı əğyar aldı.
Ömrüm çinar ömrüydü,
Xəzan vurdu, sar aldı.

***

Bu dünyanın dadı nə?
Ünvanı nə, adı nə?
Dünya bir dəyirmandı,
Yaxını nə, yadı nə.

***

Dağ başında kolam mən,
Yolsuzlara yolam mən,
Dilsizlərə dil oldum,
Qolsuzlara qolam mən.

***

Qazana bax, qazana,
Kim yeyə, kim qazana.
Fələk məhəl qoymadı
Nə yazana, pozana.

***

Öz özünə oyulma,
Dər əlində soyulma,
Qədrini vaxtında bil,
Ayaq altda qoyulma.

***

Bu dağlar keçər məndən,
Çox ağlar keçər məndən,
Bilirəm, bir gün fələk
Hesabın çəkər məndən.

***

Bir bağ saldım əzəldən,
Nübar aldım yüz əldən,
Bazarım kasad oldu
Qazancım nə xəzəldən?

***

Çiçək açdı çəməndə,
Məni  saldı kəməndə.
Məni ki səni sevmisən,
Sevməz daha bir bəndə.

***

Aranım, dağım gözəl,
Bağçalı bağım gözəl.
Şükür haqq dərgahına
Günüm, növrağım gözəl.

***

Qaşları qara yarım,
Könlümdə yara yarım,
Məni saldın dərdə sən,
Gedim mən hara, yarım?

***

Vətənin barı şirin-
Meyvəsi, narı şirin.
Min cənnətdə bar daddım
Vermədi biri yerin.

***

Qiblə yerimdir Vətən,
Kəbəm, pirimdir Vətən,
Könlüm, qəlbim, ürəyim,
Uca sərimdir Vətən.

***

Lap quru daşdı Vətən,
Yenə sirdaşdır Vətən.
Yüz cənnətim olsa da,
Hər şeydən başdır Vətən.

***

Qürbətdə quru candım,
Həsrətdən oda yandım.
Ömür-gün nə deməkdir
Gəlib Vətəndə qandım.

***

Torpağı qara Vətən,
Ürəyi para Vətən.
Loğmanım, təbibimsən
Dərdimə çara Vətən.

***

Arxam, köməyim Vətən,
Suyum, çörəyim Vətən.
Bir canda, bir könüldə
Vuran ürəyim Vətən.

***

Odum, ocağım Vətən,
İsti qucağım Vətən,
Arxam, dayağım oldun
Hər türlü çağım Vətən.

## QƏRBİ AZƏRBAYCAN BAYATILARI

Qərbi Azərbaycanım -
Qərib Azərbaycanım,
Sənə ki əlim çatmır,
Qürbət çəkən məkanım.

***

Orda bir elim itdi,
Gözümdə həsrət bitdi.
Sənin yolunda, Vətən,
Nə qədər canlar getdi.

***

Uludan ulu torpaq,
Kül oldu külün, torpaq.
Səndə bir bağ salmışdım,
Açmadı gülün, torpaq.

***

Çaylağa döndü çayın,
Söndü günəşin, ayın.
Qaldın yadlar əlində,
Duyulmadı harayın.

***

Bülbülün bağa gəlməz,
Qartalın dağa gəlməz,
Sənə dönük çıxanlar
Nə utanmaz, nə ölməz.

***

Göyçənin gözü ağlar,
Ocağı, közü ağlar.
Aşıq Alının sazı,
Ələsgər sözü ağlar.

***

Dağın dumana qaldı,
Halın yamana qaldı,
Sənə qovuşmaq dəmim
Bir xoş zamana qaldı.

# HƏRDƏNBİR YAZILAN ŞEİRLƏR



## GƏLİN BİRGƏ QUCAQ AÇAQ...

*Öz qılıncımızı özümüzə çevirənlərə*

Bir ağacın budağıyıq -
Qarabağlı, Naxçıvanlı,
Gəncəbasar, Lənkəranlı...

Kökümüz bir, soyumuz bir,
Halımız bir, hoyumuz bir,
Toyumuz bir, vayımız bir...

Biz yeganə millətik ki,
Ən dar gündə, çətin gündə
Bölüşmüşük tikəmizi.

Ağır gündə, yaman gündə
Çiyin çiyinə dayanıb
Qorumuşuq ölkəmizi.

Düşmən bizə həsəd edib,
Köks ötürüb zaman-zaman
Bu sarsılmaz birlik üçün.

Çalışıblar, vuruşublar,
Dağılıblar, yığışıblar
Bizdə olan ərlik üçün.

Onunçün də, can qardaşım,
Qan qardaşım, anam,bacım,
Hamımız vətəncanlıyıq,

Bu vətənin,bu torpağın
Bükülməyən vuran qolu,
Bütöv azərbaycanlıyıq.

Gəlin, birgə qucaq açaq,
Könül verək, halay quraq
Bu birliyin sağlığına,

Alqış deyək bu vətənin,
Bu millətin, bu dövlətin
Nurlu, aydın çağlığına.

Qoy sönməsin ocağımız,
Qanadlansın sol sağımız,
Pozulmasın növrağımız.

## MƏNİM DƏ HALIMA ŞÜKÜR EDƏN VAR

Nə böyük dərd imiş gərəksiz olmaq,
Bu da diri-diri ölməymiş, demə.
Bir vaxtlar başıma and içərdilər,
Şöhrətim düşmüşdü bütün aləmə.

Kimsədən bir içim su da ummadan
Çox "bağlı" qapılar açardı adım.
Nə bir arxalıdan, nə bir "qoçudan",
Nə də bir nadandan heç vaxt qorxmadım.

Elə bil, o vaxtlar "haqq" deyilən şey
Hələ ölməmişdi, diriydi bir az.
Çoxunda var idi Allah qorxusu,
Bilirdi, bu dünya belə də qalmaz.

Nə qədər "atlılar" atsız qaldılar,
Tozanaq yollarda itdi izi də.
Nə qədər "adlılar" adsız qaldılar,
Tükəndi taqəti, çökdü dizi də.

Yaxşı ki, mən gördüm o mənəmləri,
Hikkəsi göy dəlib, yer deşənləri.
Bir xəfif meh gəlcək, bir səs titrəcək
Sonradan ilan tək mələşənləri.

Bəlkə də, onları görməsəydim mən,
Heç vaxt inanmazdım haqq-ədalətə.
Onunçün haqq yolun tutub əzəldən
Ömrü çürütmədim ucuz şöhrətə.

İndi qınamıram kimsəni, nəyi,
Kimsənin kimsədən yoxdu xəbəri.
Elə bir zəmanə, dövran gəldi ki,
Çoxumuzun daşdan çıxır çörəyi...

Hərə öz hayında, öz azarında,
Başın qaşımağa macal da tapmır.
Əsəblər o qədər tarımlaşıb ki,
Beş kəlmə söhbətə hövsələ çatmır.

Tənhalıq adında, təklik adında
Bir iblis vurnuxur köksümüz altda.
Quru salam-sabah, hal-əhval tutmaq
Boğazdan yuxarı olub həyatda.

Gərəksiz olsam da gərəksizlərə
Yenə də ömür-gün yolçusuyam mən.
Mənim də halıma şükür edən var,
Çünki haqq-ədalət ölçüsüyəm mən.

## VAXTINDA DUYMADIQ BİZ BU HİKMƏTİ

*İti ağıllılar yatan oldular,*
*Axırda saxsı qab satan oldular.*
**Nizami Gəncəvi**

Özünü, sözünü bilməyən adam,
Bilirəm, bezmisən yaşayışından.
Ömründə bircə yol gülməyən adam,
Sən zillət çəkirsən körpə yaşından.

Elə bilirdin ki, hər doğan günəş
Sənin də bəxtinə salacaq işıq?!.
Ən böyük qazancın qabarlı əllər...
Ruhunsa pərişan,yuxun qarışıq.

Alnının, üzünün qırışlarına
Bir ovuc dən səpsən, biri göyərməz.
Min dərd ağacı da əksən sübhədək,
Nə qol-qanad açmaz, nə də bar verməz.

Hayana baxırsan ev-eşiyində,
Kitabdır, dəftərdir, kağız-qələmdir.
Bir vaxtlar onlardı çörək ağacın...
İndisə yediyin dərddir, ələmdir.

Məqamı gələndə, vaxtı gələndə
Bağladın qapını öz qismətinə.

Aludə olmuşdun, vurğun olmuşdun
Bir-iki hikmətli söz şöhrətinə.

İndi səndən "ayıq", səndən "duyuqlar"
Qaz vurub, qazanın doldurur hər gün.
Sənsə kitab yazıb, şeir deməklə
Ömrünü, gününü çürütdün bütün.

Bir vaxt kitablara verdiyin pulu
Yığsaydın, insantək ömür sürərdin.
Bir kasıb, çarəsiz, köməksizin də
Əlindən tutardın, "şükür" deyərdin.

İndi kitablar da dəyərsizləşib
Sənin tək, mənim tək insanlar kimi.
Atılıb bir nimdaş xarabalığa
Cəlalı dağılan xaqanlar kimi.

Demə, oxunmalı ən böyük kitab
Zamanın özüymüş zaman dilində.
Vaxtında duymadıq biz bu hikməti,
Duysaydıq, qalmazdıq səfil günündə...

## UZAQ OL

Xaltalı, medallı “söz” gədaları
Alçaltdı sözü də mənliyi kimi,
İçindən çürüyüb, tökülüb gedir,
Susuz dəyirmanın dənliyi kimi.

Tuği-lənət olub yaman keçiblər
Müqəddəs sənətin zərif boynuna.
Neçə illərdir ki, sənət, sənətkar
İstedadsızların düşüb “oynuna”.

Abırdan salıblar şeri, sənəti,
Abırdan, həyadan uzaq adamlar.
Gündə yüz kitablıq kağız korlayır
Qoltuqda, kölgədə yatan adamlar.

Heyif ki, onlara meydan verirlər
Gözləri əllərdə qalan naşirlər.
Ölü ədəbiyyat yaradanların
Şotuna hər gündə vuran naşirlər.

Onlar anlamır ki, müqəddəsdir söz.
O yaxına qoymaz murdarlıqları.
Vurub dağ çayı tək atar kənara
Qəlbi şikəstləri, beyni karları.

...Sən ey qələmdaşım, sən ey sözdaşım,
Uzaq ol özünü bilməyənlərdən.
Ötəri ötənlər ötüb gedəcək,
Nə qalsa, qalacaq ölməyənlərdən.

## YAXŞIDIR

*Həmişə insanlıqdan*
*gileyli olan bir dostuma*

Kölgəsiz bar ağacından
Kölgəli söyüd yaxşıdır.
Hayla gələn var-dövlətdən
Faydalı öyüd yaxşıdır.

Aranı olmayan dağdan,
Bağbanı olmayan bağdan,
Sənə sən olmayan çağdan
Quruca ad-san yaxşıdır.

Ələ gəlməz keçən gündən,
Duyulmayan səsdən, ündən,
Ümid yoxsa bir könüldən
Sabaha güman yaxşıdır.

Şirin vəddən, yalan sözdən,
Utanmaq bilməyən üzdən,
Haqda haqq görməyən gözdən
Şərəfli ölüm yaxşıdır.

Çox “dost-tanış” gəzmə, canım,
Özünün var adın, sanın.
Yoxdursa qəlbdən yananın
Tək-tənha qalmaq yaxşıdır...

## KİM BİLİR...

*Məndən umu-küsü edən bir doğmama*

Sən mənim nəyimdən küsürsən axı?!
Daha qar bağlayıb qapı-bacamı.
Bir vaxtlar gözlərim göz ovlayardı,
İndi o gözəllik, o qamət hanı?!

Yoxdur o gördüyün halım, əhvalım,
Qəlbim də əvvəlki qəlb deyil daha.
Nə sevilə bildim, nə sevə bildim,
Mən də belə-belə batdım günaha.

Vaxt vardı ağacdan bir yarpaq düşcək
Sanırdım qırıldı bir sevgi vaxtsız.
Sanırdım bir ömrün çırağı söndü,
Bir tale beləcə bitdi günahsız.

Onda təmiz idim - çiçəkdən təmiz,
Gül ləçəyi kimi incəydi ruhum.
Nə kinim var idi, nə də nifrətim,
İstərdim hamının qurbanı olum...

Daha dövran kimi dəyişdim mən də,
Ürəyim daşlaşdı, ruhum buzlaşdı.
Gözümün önündə mini ölsə də,
Sanıram insan yox, quruca daşdır...

Mən gəzərgi ruham zaman-məkansız,
Nə gecəm bilinir, nə də gündüzüm.
İllərdir yazıram dağdan, arandan...
Nə dərdim tükənir, nə də ki sözüm.

Dərdli deyingəndir, dərdli danışqan,
Heyif ki, dərdlini dərdli də duymur.
Qaçırsan çıxasan dərd orbitindən,
Bu allahsız səni gözündən qoymur.

...Sən məndən küsmüsən - günahın yoxdur,
Günah səni məndən küsdürəndədir.
Kim bilir, nə vaxtsa keçmişə döndüm,
Kim bilir, bəlkə o keçmiş öndədir.

## SÖZ UCA TANRIDIR...

Qələmi kütlərin, ağlı kütlərin
"Dahilik" azarı tutub milləti.
"Hamı deyən olub, yazan olubdur"
Baxırsan, adamın tökülür əti.

Özündən, sözündən xəbəri yoxlar,
Durub özgələrə "ağıl" verirlər.
Əsl həqiqəti qoyub bir yana
Uydurma, qondarma "nağıl" deyirlər.

Nə abır qalıbdı, nə ədəb-ərkan,
Qapıdan qovulan girir bacadan.
Sırıyıb özlərin "elmə", "şeirə",
Nə həya qalıbdı, nə də ki vicdan.

Anbaan çoxalır söz üyüdənlər,
Nə sözdən qorxurlar, nə də Tanrıdan.
Beş-üç meydangir var söz meydanında
Sanırlar onlardır yer-göy yaradan.

"Bir durun" deyən də tapılmır hələ,
Deyənlər abrından qorxub çəkinir.
Elə bununçün də əsl qələmlər
Günbəgün yoxalır, bitib tükənir.

Söz uca Tanrıdır, Tanrı uca söz.
Sözdən utanmayan utanmaz Haqdan.
Dünyadan köçəndən söz sahibləri,
Sözbazlar öldürdü sözü də çoxdan!

***29.04.2025.***

## BİR SÖZ DƏLLALINA

Bir ömür yaşadın ağlı-qaralı,
Hələ dərk etmədin özün özünü.
Dişlər tökülsə də, bel bükülsə də,
Duymadın dünyanın astar-üzünü.

Millətdən, Vətəndən, Haqdan yazırsan...
Tutmadı əməllə sözün bir-birin.
Gündə bir havaya oynadığından,
Hələ bilmirsən ki, hardadır yerin.

Küləklər ağzında xəzələ dönüb
Gah havaya qalxdın, gah yerə endin.
Gərəksiz məqamda bülbültək ötdün,
Gərəkli məqamda aradan itdin.

Sən sözə xəyanət yolunu tutdun,
Qoruya bilmədin bakirəliyin.
Sözə xəyanəti söz bağışlamır,
Sözlə açılacaq çirkin niyyətin.

Qapılar dalında bel bükə-bükə
Haqlının haqqını aldın əlindən.
Çox həşir-harayla yanan ocağın
Dəyəri bəllidir onun külündən.

Bir ayağın burda, biri də gorda...
Yeddində nə idin, indi də osan.
Bu fani dünyada kişi olmadın,
Bəlkə o dünyada kişi olasan...

## ÖZÜN BİLƏRSƏN...

*Çayxana lövhələrindən*

Gözlədiyin adam gəlib çıxmayır,
Gözləmədiyin isə başın üstədir.
Avara adamlar tökür zəhləmi,
Deyəsən, çoxunun başı xəstədir.

Oturur yanında təklif, təlifsiz,
Uçana, qaçana macal da vermir,
Ağzına gələni üyüdüb tökür,
Qovmağa adamın üzü də gəlmir.

Durduğun yerdəcə "qana düşürsən",
Birtəhər tutursan özün-özünü.
Dinənin əlindən, qolundan tutub
Qoymayır kimsəni kəsə sözünü.

...Heyvanına şükür sənin, İlahi,
Vacibdir beləsin xəlq eləyəsən?
Mən sənin işinə qarışammaram,
Məsləhət sənindir, özün bilərsən.

***26.04.2026.***

## PAZ OĞLU PAZDIR...

Tanrı qələmini bir cürə çəkib,
Kimi gursaçlıdır, kimi də dazdır.
Birini yaradıb mələk simalı,
Birini yaradıb - paz oğlu pazdır.

Nə asqıraq bilir, nə də öskürək,
Nə hörmət qanandı, nə də duz-çörək.
Fikri də, zikri də "baxaq", "qoy görək",
Çöhrəsi bəyazdır, ağlı dayazdır,
Bu heyvərə, vallah, paz oğlu pazdır.

Qışın qışlığında yaz havasında,
Ruhunu kökləyib "saz" havasında,
Ömrü axıb gedir "söz" davasında,
Başı dumanlıdır, fikri ayazdır,
Bu heyvərə, vallah, paz oğlu pazdır.

Gah qaşın oynadır, gözün süzdürür,
Gah suyun altından saman üzdürür,
Toyda, mağarlarda yaman süzdürür,
Hərdən görürsən ki, naz oğlu nazdır,
Bu heyvərə, vallah, paz oğlu pazdır.

Yeriyir astaca, gülür astaca,
Seçdiyi hədəfi vurur ustaca,
Fikri var bir yol da yollansın haca,

Məqsədi, amalı şərdir, güdazdır,
Bu heyvərə, vallah, paz oğlu pazdır.

Yapışır yaxandan qırsaqqız olub,
Çoxunun yaxası əlində qalıb,
Nə qədər "ad-san" var hamısın alıb,
Şöhrət düşkünüdür, şöhrətə bazdır,
Bu heyvərə, vallah, paz oğlu, pazdır.

Nə utanmaq bilir, nə də qızarmaq,
Birinə daş atır, birinə qarmaq,
Niyyəti, peşəsi müftəcə vurmaq,
Şəninə nə qədər "tost" desən, azdı,
Bu heyvərə, vallah, paz oğlu pazdır.

Oxucum, bəlkə də, qınarsan məni,
Vallah, bu, qoxudub bütün aləmi,
Nə dostu qalıbdı, nə də həmdəmi,
Yenə fərqə varmır, kefi də sazdır,
Bu heyvərə, vallah, paz oğlu pazdır...
Billah, bu heyvərə paz oğlu pazdır...

***01.12.2024.***

# SON SÖZ YERİNƏ



## MƏNƏ ELƏ GƏLİR Kİ...

* Əsl sənət əsərinin yaranması üçün üç şey lazımdır: istedad, zəhmət və şəxsiyyət.

* Sağlam və rahat yaşamaq istəyirsənsə, üş şeydən uzaq ol: intriqadan, şöhrət azarından və paxıllıqdan.

* Həyatda üç şeyin dərmanı yoxdur: üzüyumşaqlığın, sahibsizliyin və... həyasızlığın.

* Şəxsiyyətini qorumaq istəyirsənsə, üç şeydən uzaq ol: nəfsdən, satqınlıqdan və yalan danışmaqdan.

* Təbiət murdarlığı, cəmiyyət təmizliyi qəbul etmir.

* Ekologiyanın çirklənməsi insan mənəviyyatının çirklənməsindən başlanır.

* Həqiqəti Allah kimi öz içində axtar.

* Kamillər Allahı özündə, cahillərsə kənarda axtaranlardır.

* Utanc hissindən məhrum olanlar və yalan danışanlar ən təhlükəli adamlardır.

* İnsan iki dəyəri ölənə qədər qorumalıdır: can-sağlığını və gərəkliliyini.

* Kainatın dərki insanı dərk etməkdən başlayır.

* Özünü sevmək cahillərin, özünü sevdirmək aqillərin işidir.

* Gözləri bulanıq olanların ürəkləri də bulanıqdır.

* Yaxşılıq o vaxt qiymətli və unudulmaz olur ki, onu zərrə-zərrə həyata keçirəsən.

* Şərəfsiz adama hörmət etmək iblisə ibadət etməkdən də günahdır.

* Ən böyük tərbiyəsizlik ikiüzlülük və mənəviyyatsızlıqdır.

* Əxlaqlı və ürəyi yumşaq adamlar ən bədbəxt adamlardır.

* Allahsız adamlar Allaha küfr edənlərdən çox, yediyi çörəyə dönük çıxanlardır.

* Kişilik bir zirvədir ki, hər “erkəyin” əli çatmaz.

* Oturuşuğunu-duruşuğunu bilməyən adam hürüşünü qanmayan it kimi təhlükəlidir.

* Həyatda elə suallarla qarşılaşırsan ki, onların cavabı olmur və ya ən yaxşı halda onların cavabı “nə bilim” olur. M.Araz necə deyib?

*Səndən mənə bir ömürlük xatirə,*
*Məndən sənə nə qalacaq? Nə bilim...*

* Közü olmayanlar közün, sözü olmayanlar sözün qədrini bilməz.

* Əbədi yaşamaq ölümdən sonra şirin bir xatirəyə çevrilməkdir.

* Xoşbəxt o adamdır ki, məqamında tövbə etməyi bacarır.

* Sonu olmayan həvəsin axırı peşmanlıqdır.

* Hamı adam kimi doğulsa da, hamı insanlıq səviyyəsinə yüksələ bilmir.

* Üzüyumşaqlıq insanı mənən alçaldan ən böyük bədbəxtlikdir.

* Alçaq adamlar boylarına görə deyil, xarakterinə görə seçilirlər.

* Elmin və dinin başlıca qayəsi insanlara abır-həya, əxlaqi-mənəvi dəyərlər aşılamaqdır. Təəssüflər olsun ki, nə elm, nə də din bu ali məqsədə gərəyincə nail ola bilmədi. Ona görə də “əgər insanlar dəfn olunanda kəfənə yox abır-həyalarına bükülüb dəfn olunsaydı, çoxları lüt-üryan qəbrə qoyulardı”.

# MÜNDƏRİCAT

*ÖN SÖZ YERİNƏ.* MƏN HAQQIN YAZAN ƏLİYƏM.......... 3

ÖMÜR DƏ, DOSTLAR DA TÜKƏNİR YAMAN...

HƏRDƏN XATIRLAYAQ... ........................................................8
YAŞADIM ...............................................................................10
HƏLƏ DƏ...............................................................................11
YAMAN DARIXIRAM...........................................................13
DÜNYA VƏ SƏN ...................................................................14
DEYİLƏNƏ GÖRƏ, DEYƏNƏ GÖRƏ... ..................................15
GETDİ.....................................................................................17
ÖMÜRLƏR VAR ....................................................................18
KÖNÜL...................................................................................19
DÜNYA...................................................................................20
BU DÜNYANIN SONU NƏHSDİR... .......................................22
AH... SOKRAT........................................................................23
AĞLA......................................................................................25
İNANIB ALDANMA... ............................................................ 26
ALLAH ADAMI...................................................................... 28
İTDİ HƏQİQƏTİN HƏQİQƏT ANI........................................ 29
ŞÜKÜR DƏRGAHINA, ŞÜKÜR, AY ALLAH ...................... 31
YOLUN, DE, HARADIR... ..................................................... 33
LƏZZƏTİ VAR YAŞAMAĞIN ............................................... 35
GÜLƏ-GÜLƏ ........................................................................... 36

VƏSİYYƏT ........................................................................................ 37
SUAL ............................................................................................... 38
BİR ŞƏKLİN TƏƏSSÜRATI .................................................................. 39
OVQAT TƏƏSSÜRATI.......................................................................... 41
HƏYAT DEDİYİMİZ ŞEY .................................................................... 43
MƏN ELƏ BİLİRDİM.. ....................................................................... 44
ÖZÜNƏ QAYIT... ............................................................................... 47
YAŞAMAQ.......................................................................................... 49

YAMAN KÖVRƏLMİŞƏM

NAXÇIVANIMIN.................................................................................. 52
NAXÇIVAN.......................................................................................... 53
YAŞAYAQ, GÖRƏK ............................................................................ 54
BU ÇAY HARA AXIB GETDİ BELƏCƏ?! ............................................. 56
BİR PAYIZ DA YOLA SALDIQ BELƏCƏ............................................. 58
QIŞ LÖVHƏLƏRİ................................................................................. 59
BAŞIN UCA OLSUN... ........................................................................ 60
PAYIZ NAĞILI..................................................................................... 61
KÖVRƏKDİR BAR AĞACLARI ........................................................... 62
UNUTMA Kİ... ................................................................................... 64
ELDƏN SORUŞ... .............................................................................. 65
HƏLƏ ÜMİDLİYƏM............................................................................. 67
YURDUMUZA BAHAR GƏLİR............................................................. 69
QƏLƏM QALIB SÖZƏ HƏSRƏT.......................................................... 71
ÇƏTİNDİR .......................................................................................... 72
BİR TƏƏSSÜRAT XATİRƏSİ............................................................... 74
QAYIT................................................................................................. 75

TURAN DASTANI

BİR YATMIŞ VULKANDIR QOSQOCA TURAN .................. 78
İNDİ BÜTÖV VƏTƏN VAR...................................................... 83
MƏN TÜRK ÖVLADIYAM... .................................................... 85
TURAN QALXIR AYAĞA ........................................................ 86

ATA (Xatirə-poema)................................................................... 91

BAYATI HAVASINDA

DÖRDLÜKLƏR.........................................................................108
QƏRBİ AZƏRBAYCAN BAYATILARI..................................112

HƏRDƏNBİR YAZILAN ŞEİRLƏR

GƏLİN BİRGƏ QUCAQ AÇAQ... ..........................................116
MƏNİM DƏ HALIMA ŞÜKÜR EDƏN VAR .........................118
VAXTINDA DUYMADIQ BİZ BU HİKMƏTİ.......................120
UZAQ OL ...................................................................................122
YAXŞIDIR..................................................................................124
KİM BİLİR... ...............................................................................125
SÖZ UCA TANRIDIR... ...............................................................127
BİR SÖZ DƏLLALINA ...............................................................129
ÖZÜN BİLƏRSƏN... ...................................................................131
PAZ OĞLU PAZDIR... ................................................................132

*SON SÖZ YERİNƏ.* MƏNƏ ELƏ GƏLİR Kİ..........................135

MƏNƏ ELƏ GƏLİR Kİ... .........................................................136

**Xanəli Kərimli**
**MƏN HAQQIN YAZAN ƏLİYƏM**
*Şeirlər*

Ölçü: 130x200 mm
Cild: yumşaq

Mətn dizaynı:
Rahilə Şamilqızı

Qapaq dizaynı:
Rövşən Abbas

Qanun Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pr., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing